# İLLİK HESABAT
# 2003

AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT NEFT FONDU

# MÜNDƏRİCAT


| | |
|---|---|
| GİRİŞ | 3 |
| NEFT FONDUNUN 2003-cü İLDƏ MALİYYƏ FƏALİYYƏTİ | 7 |
| 2003-cü ildə Neft Fondunun vəsaitinin hərəkəti | 7 |
| 2003-cü ildə Neft Fondunun gəlirləri | 8 |
| 2003-cü ildə Neft Fondunun neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri | 9 |
| 2003-cü ildə Neft Fondunun vəsaitinin idarə edilməsi ilə bağlı gəlirləri | 16 |
| 2003-cü ildə Neft Fondunun xərcləri | 24 |
| 2003-cü ildə Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri | 30 |
| Neft Fondunun 2003-cü il büdcəsinin icrası | 31 |
| NEFT FONDUNUN İDARƏETMƏ SİSTEMİ | 35 |
| NEFT FONDUNUN NORMATİV-HÜQUQİ BAZASININ İNKİŞAFI | 37 |
| NEFT FONDUNUN DAXİLİ İDARƏETMƏ və İNZİBATİ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN TƏŞKİLİ | 39 |
| İnformasiya idarəetmə sistemləri | 39 |
| Neft Fondunun inzibati-təsərrüfat fəaliyyəti | 39 |
| Neft Fondunun inzibati binasının əsaslı təmiri | 40 |
| NEFT FONDUNUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ | 42 |
| İNSAN RESURSLARININ İNKİŞAFI | 45 |
| HESABAT SİSTEMİ | 47 |
| DÖVLƏT NEFT FONDUNUN 2003-cü İLDƏ MALİYYƏ FƏALİYYƏTİ HAQQINDA HESABATINA DAİR AUDİTOR ŞİRKƏTİNİN RƏYİ | 49 |
| Müstəqil Auditor Rəyi | 50 |
| Maliyyə Hesabatları | 51 |
| Maliyyə Hesabatları ilə bağlı qeydlər | 55 |




# G İ R İ Ş



Hesabat ilində Azərbaycanın təxirəsalınmaz, xüsusilə sosial-iqtisadi problemlərinin həllində, mühüm dövlət proqramları və layihələrin həyata keçirilməsində və bütövlükdə ölkənin dinamik inkişafında Dövlət Neft Fondunun rolu və mövqeyi daha da güclənmişdir. Milli neft strategiyasının uğurla həyata keçməsi sayəsində Dövlət Neft Fonduna toplanan neft gəlirlərinin miqdarının sürətlə artmasının, habelə Neft Fondunun normativ-hüquqi bazasının ilbəil təkmilləşdirilməsinin müsbət nəticəsi kimi Fondun fəaliyyətinin genişlənməsi və səmərəliliyinin yüksəlməsi üçün əlverişli şərait yaranmışdır.

2003-cü il cənab İlham Əliyevin 15 oktyabr 2003-cü il tarixli Azərbaycan Respublikasının Prezident seçkilərində parlaq qələbəsi ili kimi tarixə yazılmışdır. Ədalətli rəqabətə əsaslanan bu seçkilərdə vətəndaşlarımızın əksəriyyəti yüksək idarəçilik qabiliyyətinə, siyasi səriştəyə malik olan, ölkəmizin beynəlxalq aləmdə tanıdılmasında, idman və digər sahələrdə nailiyyətlərimizin artırılmasında və eyni zamanda Müşahidə Şurasının üzvü kimi Dövlət Neft Fondunun fəaliyyətində müstəsna xidmətləri olmuş cənab İlham Əliyevə səs verdilər. Bununla da dövlətimizin dünyaya inteqrasiyasının sürətlənməsinə, iqtisadiyyatın bütün sahələrində nailiyyətlərin artırılmasına, ölkəmizin intensiv surətdə inkişafına və Azərbaycanda Heydər Əliyev siyasi kursunun uğurla davam etməsinə əlverişli zəmin yarandı.

Keçən il Azərbaycan üçün çox ağır itki ili kimi də yadda qalacaqdır. 12 dekabr 2003-cü il tarixində Azərbaycan xalqının böyük oğlu, bütün azərbaycanlıların ümummilli lideri cənab Heydər Əliyev dünyasını dəyişdi. XX əsrin 70 - 80-ci illərində Azərbaycanda güclü aqrar-sənaye kompleksinin formalaşmasında, ölkədə ixtisaslı kadr potensialının artırılmasında və iqtisadiyyatın keyfiyyətcə yeni, daha mükəmməl müstəviyə çıxarılmasında dahi liderimizin misilsiz xidmətləri olmuşdur. Müstəqil Azərbaycana rəhbərliyi dövründə müdrik öndərin nəhəng dövlətçilik təcrübəsi, fitri idarəçilik qabiliyyəti, habelə titanik əməyi sayəsində ilk növbədə Ermənistanın təcavüzünün tezliklə qarşısı alınmaqla münaqişənin sülh danışıqları vasitəsilə həllinə yol açıldı, ölkəmiz siyasi və iqtisadi böhrandan çıxaraq dövlət quruculuğunda və islahatların uğurla həyata keçirilməsində, beynəlxalq miqyasda tanıdılmasında və mövqeyinin möhkəmləndirilməsində uğurlar qazanmış, Azərbaycanda aparılan iqtisadi siyasətin istinad nöqtəsini təşkil edən neft strategiyası isə müsbət nəticələr, o cümlədən ilk neft gəlirləri verməyə başlamışdır. Ölkəmizin neft ehtiyatlarından əldə edilən gəlirlərin gələcək nəsillər üçün toplanması, onların səmərəli istifadə edilməsi və xalqımızın rifah halına yönəldilməsi məqsədi ilə yaradılmış Dövlət Neft Fondu da məhz Heydər Əliyevin xalqımıza töhfəsi sayıla bilər. Ölkə tarixinin böyük və şərəfli bir səhifəsi olan bu dahi rəhbərin ömür yolu, onun azərbaycançılıq ideyaları xalqımızın yaddaşında əbədi yaşayacaq, qoyduğu dövlətçilik təməli isə dövlətimizin inkişaf xəttinin əsasını təşkil edəcəkdir.

Hesabat ili ölkə iqtisadiyyatının bütün sahələrində müsbət nailiyyətlərlə əlamətdar olmuşdur. İqtisadiyyatın aparıcı göstəricilərindən biri olan Ümumi Daxili Məhsulun sürətli artımı keçən ildə də qeydə alınmışdır. 2003-cü ildə ÜDM-in həcmi 35 053,3 milyard manat təşkil edərək əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 4 740,9 milyard manat və ya 15,6% artmışdır.

Son illərdə aparılmış iqtisadi islahatlar, sahibkarlığın stimullaşdırılması ilə bağlı tədbirlər sayəsində ölkənin qeyri-neft sektorunun inkişafında nəzərəçarpan irəliləyişlər əldə edilmişdir. 2003-cü ildə ÜDM-in istehsalında qeyri-neft sektorunun həcmi 2002-ci illə müqayisədə 15,5% artaraq 24 138,4 milyard manat təşkil etmişdir. Bütövlükdə isə makroiqtisadi göstəricilərin dinamikasına görə Azərbaycan əksər keçmiş sovet məkanı ölkələri arasında aparıcı mövqelərdən birini tutmaqda davam etməkdədir.

Ardıcıl və sistemli iqtisadi islahatların mühüm nəticələrindən biri kimi dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması yolu ilə əhalinin güzəranı daha da yaxşılaşmışdır.

Aparılan məqsədyönlü iqtisadi strategiyanın nəticəsi olaraq ölkəmizə çoxmilyardlı xarici investisiyaların cəlb edilməsi prosesi 2003-cü ildə də davam etdirilmişdir. Keçən ildə Azərbaycan iqtisadiyyatına 19,8 trln. manat (4 mlrd. 26 mln. dollar) sərmayə yatırılmışdır ki, bu da 2002-ci ilin göstəricisindən (12,6 trln. manat) 56,7% çoxdur. Qoyulan sərmayələrin 81,3%-i və ya 16,1 trln. manatı (3 273,3 mln. dollar) xarici kapitalın, 3,7 trln. manatı və ya 18,7%-i isə yerli sərmayələrin payına düşüb. İqtisadi inkişafın digər mühüm göstəricisi olan birbaşa investisiyaların həcmi 2003-cü ildə əvvəlki illə müqayisədə 68,9% artaraq 3 060,3 mln. ABŞ dolları təşkil etmişdir. Hesabat ilində ölkə iqtisadiyyatına daxili mənbələr hesabına investisiyaların həyata keçirilməsində Dövlət Neft Fondunun rolunun artması xüsusi olaraq qeyd edilməlidir. Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına uyğun olaraq və Fondun təsdiq edilmiş büdcəsi çərçivəsində 2003-cü ildə qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması, habelə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri (BTC) layihəsinin maliyyələşdirilməsi məqsədi ilə Dövlət Neft Fondundan 675 milyard manatdan artıq vəsait istifadə olunmuşdur. Bununla yanaşı, hesabat ilində Fondun büdcəsinin icrasına uyğun olaraq 500 milyard manat dövlət büdcəsinə transfert edilmişdir. Beləliklə, ölkənin ayrı-ayrı məqsədləri üçün 2003-cü ildə Neft Fondundan ayrılmış vəsaitlərin ümumi miqdarı 1 175 milyard manat təşkil etmişdir.

2003-cü ildə dünya iqtisadiyyatında tənəzzül meylləri davam etmişdir. İl ərzində dünyanın ən qabaqcıl ölkəsi olan ABŞ-ın büdcə kəsirinin yuxarı həddə çatması, ABŞ dollarının avroya qarşı məzənnəsinin kəskin enməsi və iqtisadiyyatda inkişaf templərinin aşağı düşməsi bütün dünya ölkələrində mənfi əks-səda doğurmuşdur. Belə ki, avronun dollara qarşı məzənnəsinin sürətlə yüksəlməsi ilk növbədə Avropa ölkələrində ixracın (bu ölkələrin iqtisadiyyatlarının ixrac yönümlü olması ilə əlaqədar) və buna müvafiq iqtisadiyyatda artım templərinin zəifləməsinə şərait yaratmışdır. Təsadüfi deyil ki, Beynəlxalq Valyuta Fondunun mütəxəssisləri ABŞ federal büdcəsinin kəsirinin kəskin artmasını və dolların məzənnəsinin zəifləməsinin davam etməsini ABŞ iqtisadiyyatının problemi saymaqla bərabər, bütün dünya iqtisadiyyatına təhlükə yarada biləcək amillər hesab etmişlər.

2003-cü ildə beynəlxalq arenada baş vermiş hərbi-siyasi proseslər də öz növbəsində ümumdünya iqtisadi məkanına mənfi təsir göstərmişdir. İlin əvvəlində ABŞ və onun müttəfiqləri tərəfindən İraqa, habelə "əl-Qaidə" kimi terrorçu təşkilatlar şəbəkələrinə qarşı aparılan hərbi kampaniyanı və bununla bağlı dünyada mövcud olmuş siyasi vəziyyəti dünya iqtisadiyyatında, xüsusilə maliyyə bazarlarında neqativ effektlər törədə biləcək geopolitik risklər adlandırmaq olardı. Dünyanın aparıcı dövlətlərinin İraqın tərk-silah olunması və qlobal terrorizmə qarşı mübarizənin üsulları ilə bağlı ABŞ və onun müttəfiqlərinə qarşı fərqli qütblərə keçmələri beynəlxalq iqtisadi birliyin zəifləməsinə və valyuta bazarlarında qeyri-sabit vəziyyətin daha da kəskinləşməsinə şərait yaratdı. ABŞ dövləti isə il ərzində hərbi sahədə və beynəlxalq terrorizmə qarşı mücadilə istiqamətində əldə etdiyi uğurlarına baxmayaraq, ilin sonuna qədər ölkə iqtisadiyyatında təşəkkül tapmış mənfi meyllərdən azad oluna bilməmişdir. Bütün bunları Neft Fondunun vəsaitlərinin idarə edilməsindən yüksək nəticələrin əldə olunmasını məhdudlaşdıran amillər sırasına daxil etmək olardı.

2003-cü ildə dünya maliyyə bazarlarında hökm sürən qeyri-sabit vəziyyəti, habelə ABŞ və Avropanın Mərkəzi Banklarının faiz dərəcələrinin aşağı səviyyədə olduğunu nəzərə alaraq Neft Fondu özünün investisiya siyasətində daha mühafizəkar mövqe tutmuş, əsas kapitalın itirilməməsinə və təminatlı gəlirin əldə edilməsinə im-

kan verən siyasət yeritmişdir. Digər tərəfdən Neft Fondunun investisiya siyasəti əvvəlki illərə nisbətən daha aktivliyi ilə seçilmiş və Fondun vəsaitləri yüksək gəlir əldə etmək imkanını verən investisiya vasitələrinə yerləşdirilmişdir. Bunun müsbət nəticəsi olaraq 2003-cü ildə Fondun vəsaitlərinin idarə edilməsi ilə bağlı gəlirliliyi əvvəlki illərlə və təsdiq edilmiş büdcə göstəriciləri ilə müqayisədə artaraq hesabat valyutası (Azərbaycan manatı) üzrə 5,08%, baza valyutası (ABŞ dolları) üzrə isə 4,42% təşkil etmişdir.



# NEFT FONDUNUN 2003-cü İLDƏ MALİYYƏ FƏALİYYƏTİ



## 2003-cü ildə Neft Fondunun vəsaitinin hərəkəti

2003-cü ilin 1 yanvar tarixinə Dövlət Neft Fondunda toplanmış vəsaitin həcmi **3 387 278,1 milyon manat** təşkil etmişdir.

2003-cü il ərzində Neft Sazişlərinin həyata keçirilməsi və Neft Fondunun valyuta vəsaitlərinin idarə edilməsi ilə bağlı Fondun gəlirlərinin ümumi həcmi **1 820 493,2 milyon manat** təşkil etmişdir.

Hesabat ili ərzində Neft Fondunun vəsaitlərinin istifadəsi ilə əlaqədar layihələrin və Fondun idarə edilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsinə yönəldilən vəsaitin ümumi həcmi **1 192 120,2 milyon manat** olmuşdur.

2002-ci il üzrə Neft Fondunun aktivlərində qiymətli kağızların beynəlxalq mühasibat standartlarına uyğun olaraq yenidən qiymətləndirilməsi nəticəsində 2003-cü ilə keçərək Fondun vəsaitlərinə əlavə olunmuş 360,0 milyon manat məbləğində gəlir fərqini, habelə əsas vəsaitlərin amortizasiyası üzrə 2001 - 2003-cü illər üzrə toplanmış 257,3 milyon manat məbləği çıxmaqla 2003-cü ilin 31 dekabr tarixinə Fondun vəsaitinin ümumi miqdarı **4 015 033,8*** milyon manat təşkil etmişdir.

2003-cü ildə Neft Fondunun vəsaitinin rüblər üzrə artım dinamikasını *Qrafik 1* əks etdirir.

* "Ernst ənd Yanq" şirkətinin Audit hesabatında göstərilmiş hesabat ilinin sonuna aktivlərin cəmi həcmi ilə fərqin səbəbi auditorlar tərəfindən ilin sonuna aktivlərin ümumi miqdarının müəyyən edilməsi zamanı Neft Fondunda aparılan hesablamalara nisbətən ayrı və beynəlxalq mühasibat standartlarına uyğun yanaşmaları olubdur. Belə ki, auditorlar tərəfindən aktivlərin ümumi miqdarı hesablanarkən Fondun aktivlərinə bir tərəfdən əsas vəsaitlər və qeyri-maddi aktivlər (3 613,0 milyon manat), 2003-cü ilin dekabr ayı üzrə hesablanmış, lakin fakt olaraq Neft Fonduna 2004-cü ilin yanvar ayında mədaxil olunmuş tranzit haqqı (5 186,0 milyon manat), habelə avans ödənişləri (269,0 milyon manat) əlavə edilmiş, digər tərəfdən 2004-cü ilin yanvar ayında büdcəyə ödənilmiş mənfəət vergisi (32 977,0 milyon manat) və qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı layihələrin maliyyələşdirilməsi üçün ayrılmış vəsaitlər üzrə hesablanmış, lakin 2004-cü ildə ödənilməsi nəzərədə tutulan ƏDV (23 000,0 milyon manat) məbləği çıxılmışdır.

## 2003-cü ildə Neft Fondunun vəsaitinin həcmi *(artan yekunla)*




Qrafik 1

## 2003-cü ildə Neft Fondunun gəlirləri

Dövlət Neft Fondunun əsas mədaxil mənbələrini Azərbaycan Respublikasının xarici sərmayəçilərlə bağladığı neft və qazın kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü barədə sazişlərin həyata keçirilməsindən və Fondun vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər təşkil edir. 2003-cü ildə Neft Fondunun qeyd edilən mənbələrdən gəlirləri *Cədvəl 1-də* göstərildiyi kimi olmuşdur.

### 2003-cü ildə Neft Fondunun gəlirlərinin strukturu

| Gəlirlər | Məbləğ *(milyon AZM)* |
|---|---|
| Neft Fondunun ümumi gəlirləri, | 1 820 493,2 |
| *o cümlədən:* | |
| Neft Sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirlər | 1 636 709,1 |
| Fondun vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər | 183 784,1 |

Cədvəl 1

Hesabat ilində Neft Sazişlərinin həyata keçirilməsindən Dövlət Neft Fondunun gəlirlərinin formalaşma mənbələrini Azərbaycan Respublikasının payına düşən xam neftin satışından əldə edilmiş gəlirlər, bonus ödənişləri, akrhesabı ödənişlər, xarici şirkətlərlə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icarə haqqı və Azərbaycan tərəfinə verilən aktivlərdən daxilolmalar təşkil etmişdir.





## 2003-cü ildə Neft Fondunun neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri

2003-cü ildə Dövlət Neft Fondunun neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirlərinin strukturu *Qrafik 2-də* qeyd edildiyi kimi olmuşdur.

### 2003-cü ildə neft sazişlərinin həyata keçirilməsi ilə bağlı Neft Fondunun gəlirləri




Qrafik 2

***Mənfəət neftinin satışından əldə edilən gəlirlər.***

Əvvəlki illərdə olduğu kimi, 2003-cü ildə neft sazişlərinin həyata keçirilməsi ilə bağlı Neft Fondunun əsas mədaxil mənbəyini xarici neft şirkətləri ilə bağlanmış sazişlər çərçivəsində Azərbaycan Respublikasının payına düşən xam neftin (mənfəət neftinin) satışından əldə edilən gəlirlər təşkil etmişdir. Hesabat ilində Neft Fondunun bu mənbədən gəlirləri Fondun ümumi gəlirlərinin 869 008,3* milyon manatını (176,9 milyon ABŞ

### 2003-cü ildə Neft Fonduna mənfəət neftinin satışından daxilolmalar

| Vəsaiti köçürən qurumun adı | Yatağın adı | Tarix | Məbləğ | |
|---|---|---|---|---|
| | | | milyon AZM | min $ ABŞ |
| ARDNŞ | Azəri-Çıraq-Günəşli | 03/2003 | 117 910,6 | 24 048,7 |
| ARDNŞ | Azəri-Çıraq-Günəşli | 04/2003 | 122 449,5 | 24 943,9 |
| ARDNŞ | Azəri-Çıraq-Günəşli | 06/2003 | 123 597,5 | 25 121,4 |
| ARDNŞ | Azəri-Çıraq-Günəşli | 08/2003 | 143 134,8 | 29 122,0 |
| ARDNŞ | Azəri-Çıraq-Günəşli | 09/2003 | 146 578,6 | 29 853,1 |
| ARDNŞ | Azəri-Çıraq-Günəşli | 10/2003 | 139 530,2 | 28 411,8 |
| ARDNŞ | Azəri-Çıraq-Günəşli | 12/2003 | 75 807,1 | 15 401,6 |
| **Cəmi** | | | **869 008,3** | **176 902,5** |

Cədvəl 2

* Auditor hesabatında göstərilmiş mənfəət neftinin satışından Neft Fonduna daxilolmaların məbləği ilə fərqin səbəbi auditorlar tərəfindən bu məbləğə ARDNŞ tərəfindən hesabat ilinin mənfəət neftinin son partiyasının satışından əldə olunmuş mədaxildən şirkətin xeyrinə tutulmuş və ARDNF-ə daxil olmadan İİN-in Azərbaycan BTC Ltd şirkətindəki səhmləri üzrə 40 615,7 milyon manat (8,25 mln. ABŞ dolları) məbləğində əlavə ödənişin maliyyələşdirilməsinə yönəldilmiş vəsaitin daxil edilməsi olmuşdur.

dolları) və yaxud 47,73%-ni təşkil etmişdir. Hesabat ilində mənfəət neftinin satışından Neft Fonduna daxilolmalar *Cədvəl 2-də* göstərilir.

2003-cü ildə dünya bazarlarında neftin qiymətlərində müşahidə edilən qeyri-sabitlik əvvəlki illərə nisbətən nisbi xarakter daşımışdır. İl ərzində neftin qiymətləri bir barrel üçün 31 ABŞ dolları ilə 28 ABŞ dolları arasında dəyişmişdir. Yalnız aprel ayında neftin qiyməti ilin ən aşağı səviyyəsinə - bir barrel üçün 23,59 ABŞ dollarına qədər enmişdir. Hesabat ili ərzində dünyanın neft bazarlarında Brent neftinin orta qiyməti 28,84 ABŞ dollarına bərabər olmuşdur.

2003-cü il ərzində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) tərəfindən satılmış mənfəət nefti partiyalarının qiymətlərində də qeyri-sabitlik əlamətləri mövcud idi. Mart ayında bir barrel üçün 32,98 ABŞ dolları olan mənfəət nefti partiyasının satış qiyməti iyunda 25,43 ABŞ dollarına qədər enmiş, ilin sonuna yaxın isə nisbətən yüksələrək dekabr ayında 29,38 ABŞ dolları təşkil etmişdir. İl ərzində satılmış mənfəət nefti partiyalarının bir barrelinin orta qiyməti 28,66 ABŞ dolları olmuşdur (bax: *Qrafik 3*).

Bununla yanaşı, 2003-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) tərəfindən hesabat ilinin mənfəət neftinin dekabr ayındakı partiyasının satışından əldə olunmuş mədaxildən 8,25 milyon ABŞ dolları məbləğində vəsait şirkətin xeyrinə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 nömrəli və 01 noyabr 2002-ci il tarixli 811 nömrəli Fərmanlarının icrasına uyğun olaraq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycanın 25%-lik iştirak payı Azərbaycan BTC limited şirkəti vasitəsilə həyata keçirilərək maliyyələşdirildiyindən və bu şirkətin səhmlər zərfi ARDNŞ və İqtisadi İnkişaf Nazirliyi (İİN) arasında 30/70 faiz nisbətinə uyğun bölüşdürüldüyündən layihə başlayandan Azərbaycan tərəfi öz daxili vəsaitləri hesabına bu layihə üçün ümumilikdə 250 milyon ABŞ dolları ödəmişdir ki, bu da öz növbəsində yuxarıda qeyd edilən faiz nisbətinə uyğun olaraq 75 və 175 milyon ABŞ dolları təşkil edir. ARDNŞ tərəfindən BTC layihəsi üçün ümumilikdə 83,25 milyon ABŞ dolları, İİN-in payının maliyyələşdirilməsini həyata keçirən ARDNF tərəfindən isə 166,75 milyon ABŞ dolları ödənilmişdir. Qeyd olunan faiz nisbətlərini tənzimləmək və Azərbaycan tərəfinin hər bir iştirakçısının (İİN və ARDNŞ) bu layihədə paylarını nizama

**2003-cü ildə dünya bazarlarında Brent neftinin qiymətinin və ARDNŞ tərəfindən satılmış mənfəət nefti partiyalarının satış qiymətlərinin müqayisəli dinamikası**




*Qrafik 3*

salmaq məqsədi ilə ARDNŞ tərəfindən hesabat ilinin mənfəət neftinin son partiyasının satışından əldə olunmuş mədaxildən 8,25 milyon ABŞ dolları və yaxud 40 606,5* milyon manat vəsait şirkət tərəfindən tutularaq əvəzləşdirilmişdir.

Hesabat ili ərzində mənfəət neftinin satışı ilə bağlı Dövlət Neft Fonduna daxil olmuş vəsaitlərin ümumi miqdarı 176, 9 milyon ABŞ dolları təşkil etmişdir.

Mənfəət neftinin satışı ilə bağlı məbləğlər Neft Fonduna köçürülərkən neftin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri ARDNŞ tərəfindən tutulmuşdur.

Dövlət Neft Fonduna mənfəət neftinin satışından əldə edilmiş daxilolmaların həcminin illər üzrə dinamikası *Qrafik 4-də* göstərilir.

**2000 – 2003-cü illər ərzində mənfəət neftinin satışından daxilolmalar**




*Qrafik 4*

## *Bonus ödənişlərindən əldə olunan gəlirlər.*

Hesabat ilində Dövlət Neft Fondunun digər daxilolma mənbəyini neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilmiş bonuslar (mükafatlar) təşkil edib. 2003-cü ildə Neft Fonduna daxil olmuş bonus ödənişlərinin ümumi məbləği 608 945,8** milyon manat və yaxud 124,0 milyon ABŞ dolları təşkil etmişdir. Hesabat ilində bonus ödənişlərinin daxilolma mənbələri *Cədvəl 3-də* göstərilir.

**2003-cü ildə Neft Fonduna bonus ödənişləri ilə bağlı daxilolmalar**

| Vəsaiti köçürən qurumun adı | Tarix | Məbləğ mln. AZM | Məbləğ mln. $ ABŞ |
|---|---|---|---|
| AR Milli Bankı | Yanvar - may | 320 752,4 | 65,4 |
| LUKoyl (Rusiya) şirkəti | İyun | 239 063,4 | 48,6 |
| Ekson-Mobil şirkəti (ABŞ) | Noyabr | 49 130,0 | 10,0 |
| **Cəmi** | | **608 945,8** | **124,0** |

*Cədvəl 3*

* Vəsaitin əvəzləşdirmə tarixinə (24.12.03) AR Milli Bankının məzənnəsi 1 ABŞ dolları 4922 manat olmuşdur.

** Auditor hesabatında göstərilmiş bonus ödənişlərindən Neft Fonduna daxilolmaların məbləği ilə fərqin səbəbi AR Prezidentinin BTC layihəsində ARDNŞ-in iştirak payının maliyyələşdirilməsi haqqında 30.07.02-ci il tarixli 739 N-li Fərmanının icrasına uyğun olaraq AR Milli Bankında bonus şəklində toplanmış və ARDNF-ə köçürülmüş 320 752,4 milyon manat məbləğinin auditorlar tərəfindən xəzinədarlığın Neft Fonduna (BTC layihəsinin maliyyələşdirilməsi məqsədi ilə) transferti kimi qeydə alınmasıdır.

Bonus ödənişlərinin 320,7 milyard manatını və yaxud 65,4 milyon ABŞ dollarını Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 N-li "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərmanının icrasına uyğun olaraq Dövlət Neft Fonduna köçürülmüş vəsait təşkil edib. Fərmana əsasən, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi məqsədi ilə 2000-ci ilədək neft sazişləri çərçivəsində xarici sərmayəçilər tərəfindən Azərbaycan Respublikasına ödənilmiş və Azərbaycan Respublikası Milli Bankının xarici valyuta ehtiyatlarını təşkil edən 118 milyon ABŞ dolları məbləğində vəsait Dövlət Neft Fonduna köçürülməli idi. Bu məbləğin 52,6 milyon ABŞ dolları və ya 257 630,4 milyon manatı Dövlət Neft Fonduna 2002-ci ildə daxil olmuş, qalan 65,4 milyon ABŞ dolları isə 2003-cü ildə köçürülmüşdür. Hesabat ilində eyni zamanda Neft Fondunun bonus ödənişləri ilə bağlı daxilolmaların 49,1 milyard manatını və ya 10,0 milyon ABŞ dollarını Ekson-Mobil şirkətinin (ABŞ) Zəfər-Məşəl yataqlarında qazma işlərinin başlanılması ilə əlaqədar, 239,1 milyard manatını və yaxud 48,6 milyon ABŞ dollarını isə LUKoyl (Rusiya) şirkətinin D-222 Bloku üzrə kontrakt ərazisinin artırılmasına görə bonus ödənişləri təşkil edib. Bonus ödənişləri ilə bağlı daxilolmalar Neft Fondunun ümumi gəlirlərinin 33,45%-ni təşkil etmişdir. Bonus ödənişlərinin mənbələr üzrə xüsusi çəkiləri *Qrafik 5-də* əks olunur.

**2003-cü ildə Dövlət Neft Fonduna bonus ödənişləri**




*Qrafik 5*

Qrafikdən göründüyü kimi, 2003-cü ildə Neft Fonduna ödənilmiş bonusların 52,7%-ni Azərbaycan Respublikası Milli Bankının köçürdüyü vəsaitlər, 8,1%-ni Ekson-Mobil (ABŞ) şirkətinin, 39,2%-ni isə LUKoyl (Rusiya) şirkətinin ödədiyi bonuslar təşkil etmişdir.

## *Akrhesabı ödənişlərlə bağlı gəlirlər.*

Dövlət Neft Fondunun daha bir daxilolma mənbəyini karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar xarici sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına ödənilən akrhesabı ödənişlər təşkil edir. 2003-cü ildə Neft Fonduna daxil olmuş akrhesabı ödənişlərin ümumi məbləği 94 555,3 milyon manat və ya təqribən 19,3 milyon ABŞ dollar olmuşdur. Bu mənbədən daxilolmalar Neft Fondunun ümumi gəlirlərinin 5,19%-ni təşkil etmişdir. Hesabat ilində Neft Fonduna akrhesabı ödənişlərdən daxilolmalar *Cədvəl 4-də* göstərildiyi kimi olmuşdur.





**2003-cü ildə Neft Fonduna akrhesabı ödənişlər üzrə daxilolmalar**

| Vəsaiti köçürən qurumun adı | Yatağın adı | Tarix | Məbləğ milyon AZM | Məbləğ min $ ABŞ |
|---|---|---|---|---|
| LUKoyl şirkəti | D-222 | 03/2003 | 45 845,3 | 9 360,0 |
| Ekson-Mobil şirkəti | Zəfər-Məşəl | 04/2003 | 6 312,9 | 1 286,0 |
| Ekson-Mobil şirkəti | Oğuz | 05/2003 | 837,2 | 170,4 |
| JAOC şirkəti | Yanan Tava | 05/2003 | 5 014,3 | 1 020,0 |
| AGIP şirkəti | Kürdaşı | 07/2003 | 2 755,0 | 560,3 |
| Şevron şirkəti | Abşeron | 08/2003 | 2 337,2 | 475,6 |
| JAOC şirkəti | Yanan Tava | 10/2003 | 1 687,7 | 343,7 |
| Ekson-Mobil şirkəti | Zəfər-Məşəl | 12/2003 | 2 754,1 | 560,0 |
| LUKoyl şirkəti | D-222 | 12/2003 | 21 958,0 | 4 463,0 |
| BP exploration | İnam | 12/2003 | 4 428,9 | 900,0 |
| AGIP şirkəti | Kürdaşı | 12/2003 | 624,7 | 126,9 |
| **Cəmi** | | | **94 555,3** | **19 265,9** |

*Cədvəl 4*

## *İcarə haqqı ilə bağlı gəlirlər.*

2003-cü ildə Dövlət Neft Fondunun gəlirlərinin digər mənbəyini xarici şirkətlərlə bağlanmış sazişlər çərçivəsində dövlət əmlakından istifadə üçün icarə haqqı təşkil etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 07 fevral tarixli 849 saylı Fərmanı ilə Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktlarında dəyişikliklər edildikdən sonra bu mənbə artıq Fondun formalaşdırılması mənbəyini təşkil etmir və icarə haqqı ilə bağlı Neft Fonduna hesabat ilində mədaxil edilmiş son köçürmənin məbləği 586,4 milyon manat və ya 120,0 min ABŞ dolları təşkil etmişdir. Bu məbləğ Fondun ümumi gəlirlərinin 0,03%-ni təşkil edib. İcarə haqqı ilə bağlı gəlirlər *Cədvəl 5-də* göstərilir.

**2003-cü ildə icarə haqqı üzrə Neft Fonduna daxilolmalar**

| Vəsaiti köçürən qurumun adı | Tarix | Məbləğ milyon AZM | Məbləğ min $ ABŞ |
|---|---|---|---|
| ABƏŞ | 01/2003 | 586,4 | 120,0 |
| **Cəmi** | | **586,4** | **120,0** |

*Cədvəl 5*

## *Tranzit haqları ilə bağlı ödənişlər.*

2003-cü ildə Neft Fondunun digər gəlir mənbəyini neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqqı) təşkil etmişdir. Bu gəlir mənbəyi üzrə Neft Fonduna daxil olan gəlirlərin ümumi məbləği 63 588,9* mln.

* Auditor hesabatında göstərilmiş tranzit haqqı üzrə daxilolmaların məbləği ilə fərqin səbəbi 2003-cü ilin dekabr ayı üzrə hesablanmış, lakin 2004-cü ilin yanvar ayında Fonda daxil olmuş 5 186 milyon manat tranzit haqqının auditorlar tərəfindən beynəlxalq mühasibat standartlarına uyğun olaraq 2003-cü ilin gəlirinə aid edilməsi olmuşdur. Neft Fondu həmin məbləği daxilolma tarixindən, yəni 2004-cü ilin yanvar ayından etibarən mədaxil kimi göstərmişdir.

manat və yaxud 12 947,8 min ABŞ dolları təşkil etmişdir. Neft Fondunun ümumi gəlirlərinin tərkibində tranzit haqları ilə bağlı gəlirlərin xüsusi çəkisi 3,49%-ə bərabərdir. Neft Fonduna tranzit haqqı ilə bağlı daxilolmalar *Cədvəl 6-da* göstərilir.

**2003-cü ildə Neft Fonduna tranzit haqqı ilə bağlı daxilolmalar**

| Vəsaiti köçürən qurumun adı | Tarix | Məbləğ milyon AZM | Məbləğ min $ ABŞ |
|---|---|---|---|
| ABƏŞ | 01/2003 | 5 478,9 | 1 118,6 |
| ABƏŞ | 02/2003 | 4 844,1 | 989,6 |
| ABƏŞ | 03/2003 | 4 749,8 | 968,2 |
| ABƏŞ | 04/2003 | 4 994,6 | 1 017,6 |
| ABƏŞ | 07/2003 | 5 848,4 | 1 190,4 |
| ABƏŞ | 07/2003 | 6 198,9 | 1 259,7 |
| ABƏŞ | 07/2003 | 4 580,4 | 930,4 |
| ABƏŞ | 08/2003 | 5 797,6 | 1 179,6 |
| ABƏŞ | 09/2003 | 5 592,2 | 1 138,5 |
| ABƏŞ | 10/2003 | 5 350,1 | 1 089,6 |
| ABƏŞ | 11/2003 | 5 332,2 | 1 085,8 |
| ABƏŞ | 12/2003 | 4 821,7 | 979,8 |
| **Cəmi** | | **63 588,9** | **12 947,8** |

*Cədvəl 6*

### *Neft-qaz sazişləri çərçivəsində sərmayəçilər tərəfindən verilən aktivlərdən alınan gəlirlər.*

Dövlət Neft Fondu haqqında normativ qanunvericilik aktlarına uyğun olaraq Fondun digər gəlir mənbəyini neft-qaz sazişləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən verilən aktivlərdən əldə edilən gəlirlər təşkil edir. Aktivlərin təhvil-təslim prosesinin səmərəli təşkili məqsədi ilə Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və hasilatın pay bölgüsü sazişləri (HPBS) çərçivəsində çalışan xarici neft şirkətləri arasında üçtərəfli müqavilələr bağlanılır. Bu müqavilələrə uyğun olaraq HPBS çərçivəsində fəaliyyətini davam etdirən xarici neft şirkəti yararsız hesab etdiyi və ya müxtəlif səbəblərdən onlara lazım olmayan aktivləri, HPBS-ə xitam verən şirkətlər isə xitam tarixinə onlarda olan bütün aktivləri Dövlət Neft Fonduna təhvil verməlidirlər. Azəri-Çıraq-Günəşli yatağı üzrə HPBS çərçivəsində Azərbaycan tərəfinə aktivlərin təqdim edilməsi prosedurları Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti arasında 24 dekabr 2002-ci il tarixində bağlanmış üçtərəfli müqavilə ilə tənzimlənir. Müqavilədə eyni zamanda aktivlərin təqdim edilməsi mexanizmləri və müvafiq rəsmiləşdirmə qaydaları təsbit edilir.

Qeyd olunan müqavilənin icrasına uyğun olaraq 2003-cü il ərzində ABƏŞ tərəfindən Dövlət Neft Fonduna 69 ədəd istifadə olunmuş avtonəqliyyat vasitəsi təhvil verilmişdir ki, bunların da 44 ədədi minik avtomobili, 7 ədədi mikroavtobus, 17 ədədi minik-yük avtomobili, 1 ədədi isə xüsusi təyinatlı tibb avtomobilidir. 1988 - 1998-ci illərin buraxılışı olan avtomobillərin 8 ədədi yaxşı, 52 ədədi kafi, 9 ədədi isə qeyri-kafi - yararsız vəziyyətdə qəbul edilmişdir. Eyni zamanda, aktivlərin verilməsi ilə bağlı aparılan işlər və danışıqlar zamanı məlum olmuşdur ki, ABƏŞ-in iş fəaliyyəti nəticəsində əmələ gələn metal qırıntıları, naqil və kabel artıqları tullantı hesab edilərək utilizə edilir. 2003-cü ildə Neft Fondu tərəfindən Bakı şəhərində polad məmulatlarının istehsalı ilə məşğul olan "Baku Stil Kompani" şirkətinə metal qırıntılarının satışı (müqavilə əsasında) təşkil edilmiş və nəticədə il ərzində 711 ton qara metal qırıntıları təsərrüfat məqsədlərinə qaytarılmış, Fonda isə müvafiq məbləğdə əlavə vəsaitlərin daxil edilməsi təmin edilmişdir. "Baku Stil Kompani" şirkətinə (bu şirkətlə imzalanmış müqaviləyə əsasən) realizə edilmiş 210,4 ton metal qırıntılarının satışından əldə olunmuş **24,4 milyon manat** Neft Fonduna hesabat ilinin dekabr ayında, qalan 500,6 tonun satışına görə 58,1 milyon manat isə 2004-cü ilin yanvar ayında daxil olmuşdur.

2003-cü il ərzində digər növ aktivlərin qəbul edilməsi, habelə bu kimi məsələlərin tənzimlənməsi mövzusunda ABƏŞ-lə danışıqlar aparılmışdır. 2004-cü ildə bu işlərin və bununla yanaşı, digər tullantı hesab edilən materialların səmərəli istifadəsinin təşkil edilməsi davam etdiriləcəkdir.

10 oktyabr 2003-cü il tarixində Xəzər dənizinin Azərbaycan sektorunda Kürdaşı dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişi çərçivəsində aktivlərin təqdim edilməsini tənzimləmək məqsədi ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və AGİP Azərbaycan Bi.Vi. şirkəti arasında üçtərəfli müqavilə imzalanmışdır. Bu müqavilədə aktivlərin təqdim edilməsi prosedurları, mexanizmləri və müvafiq rəsmiləşdirmə qaydaları ətraflı təsbit olunmuşdur. Müqavilə çərçivəsində AGİP Azərbaycan Bi.Vi. şirkətindən ofis avadanlığı, mebel və 11 ədəd avtomobil nəqliyyat vasitəsi, o cümlədən 10 ədəd minik avtomobili (Cip), 1 ədəd mikroavtobus qəbul edilmişdir. Avtomobillər 1997 - 1999-cu illərin buraxılışı olan nəqliyyat vasitələridir və onlar texniki yararlılıq baxımından yaxşı vəziyyətdə qəbul edilmişdir.

Hesabat ilində Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun, eləcə də Atəşgah, Yanan Tava və Muğan perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişlərinin 14.1 maddəsinə uyğun olaraq Şevron Oversiz Eksploreyşn Limitid və Japan Azərbaycan Oyl kompani şirkətləri ilə Neft Fonduna aktivlərin təqdim edilməsi məsələsi ilə bağlı 2003-cü ildə danışıqlar aparılmış, müvafiq sənəd layihəsi işlənib hazırlanmışdır.

Məlum olduğu kimi, 2002-ci ildən etibarən xarici neft şirkətləri tərəfindən Dövlət Neft Fonduna verilən aktivlər (avtonəqliyyat vasitələri, mebel, ofis və məişət avadanlıqları), səmərəli istifadəsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə və Prezidentin İcra Aparatı rəhbərinin 20 noyabr 2002-ci il tarixli Sərəncamına əsasən ölkənin dövlət orqanları və idarələri arasında mövcud ehtiyaclarına uyğun olaraq bölüşdürülür. Sərəncama uyğun olaraq Azərbaycan Respublikası Prezident Aparatının, Dövlət Neft Fondunun və digər əlaqədar dövlət orqanlarının nümayəndələrindən ibarət Komissiya yaradılmışdır. Aktivlərin bölgüsü mövzusu ilə bağlı 2003-cü ildə Komissiyanın bir neçə iclası keçirilmişdir. İclaslarda qəbul edilmiş 26 aprel 2003-cü il tarixli və 14 iyul 2003-cü il tarixli qərarlara əsasən, Dövlət Neft Fondunun sərəncamında olan nəqliyyat vasitələrinin bir qismi elm, sosial, humanitar və səhiyyə sahələrində fəaliyyət göstərən dövlət orqanları, eləcə də mərkəzi və ərazi icra orqanları arasında bölüşdürülmüş və müvafiq qanunvericiliyə uyğun olaraq təhvil verilmişdir (Azərbaycan Respublikası Prezidentinin Aparatına - 5 ədəd, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə - 7 ədəd, Milli Təhlükəsizlik Nazirliyinə - 5 ədəd, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə - 17 ədəd, Milli Elmlər Akademiyasına - 16 ədəd, Milli Musiqi Akademiyasına - 1 ədəd).

## 2003-cü ildə Dövlət Neft Fondunun vəsaitinin idarə edilməsi ilə bağlı gəlirləri

Aktivlərin yerləşdirilməsindən və idarə edilməsindən əldə edilən gəlirlər Dövlət Neft Fondunun gəlirlərini formalaşdıran vacib mənbələrdən biri hesab olunur. Dövlət Neft Fondu haqqında qanunvericiliyə uyğun olaraq Fondun vəsaitinin idarə edilməsi ilə bağlı gəlirlərə Neft Fondunun aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər, o cümlədən faiz gəlirləri, dividendlər, valyuta aktivlərinin yenidən qiymətləndirilməsindən alınan gəlirlər və s. təşkil edir. Neft Fondunun bu mənbələrdən əldə edilmiş gəlirlərin ümumi həcmi 183 784,1 milyon manat olmuşdur, bundan 67 195,8 milyon manatı və yaxud 36,5%-i valyuta aktivlərinin yenidən qiymətləndirilməsindən (məzənnə fərqindən) əldə edilmişdir. Gəlirlərin ümumi strukturunda vəsaitlərin idarə edilməsi ilə bağlı gəlirlərin xüsusi çəkisi 10,1% təşkil etmişdir.

### 2003-cü ildə Neft Fondunun vəsaitinin idarə olunmasından əldə edilmiş gəlirlərin strukturu

| Gəlir mənbələri | Məbləğ *(milyon AZM)* |
|---|---|
| Faiz gəlirləri və dividendlər | 116 588,3 |
| Valyuta aktivlərinin yenidən qiymətləndirilməsindən əldə edilmiş gəlirlər | 67 195,8 |
| **Cəmi** | **183 784,1** |

*Cədvəl 7*

Dövlət Neft Fondunun valyuta vəsaitlərinin səmərəli yerləşdirilməsi beynəlxalq maliyyə-investisiya bazarlarında mövcud olan vəziyyətdən asılıdır. 2003-cü ildə beynəlxalq maliyyə bazarlarında yaranmış vəziyyəti Neft Fondunun vəsaitlərinin yerləşdirilməsi üçün ümumilikdə qeyri-sabit və ağır kimi qiymətləndirmək olardı. Hesabat ili ərzində dünyanın ən qabaqcıl ölkəsi olan ABŞ-ın büdcə kəsiri son onilliklərin ən yuxarı həddinə - 395 milyard dollara və yaxud ÜDM-in 3,6%-lik səviyyəsinə çatmışdır. Eyni zamanda, keçən ildə ABŞ dollarının avroya qarşı məzənnəsi kəskin şəkildə aşağı düşmüşdür. 2003-cü il ərzində ABŞ dollarının avroya nisbətən məzənnəsinin aşağı düşmə prosesi öz davamlılığı və kəskin dəyişkənliyi ilə əvvəlki illərdən fərqlənmişdir.

Bununla yanaşı, 2003-cü il ərzində ABŞ Mərkəzi Bankının FedFunds faiz dərəcəsi son onilliklərin ən aşağı göstəricisi olan 1,25% - 1,00% səviyyəsində olmuşdur. ABŞ Mərkəzi Bankının Açıq Bazar Əməliyyatları Komitəsinin 25 iyun 2003-cü il tarixində keçirilmiş iclasında faiz dərəcəsi azaldılaraq özünün ən son həddinə - 1,0%-ə endirilmişdir.

Avronun ABŞ dollarına nisbətən orta aylıq məzənnəsinin və ABŞ Mərkəzi Bankının faiz dərəcəsinin 2003-cü il ərzində dinamikasını *Qrafik 6-da* müşahidə etmək olar.

ABŞ-ın iqtisadi göstəricilərinin aşağı düşməsi dünyanın aparıcı ölkələrinin iqtisadiyyatında da mənfi meyllərin yaranmasına səbəb olmuşdur. Avronun dollara qarşı məzənnəsinin sürətlə yüksəlməsi öz növbəsində Avropa ölkələrində ixracın səviyyəsinə (bu ölkələrin iqtisadiyyatlarının ixrac yönümlü olması ilə əlaqədar) mənfi təsir etmiş və bu ölkələrdə də artım templəri aşağı düşmüşdür.

Eyni zamanda, 2003-cü ildə beynəlxalq arenada baş vermiş hərbi-siyasi prosesləri ümumdünya iqtisadi məkanına mənfi təsir etmiş ciddi amillər hesab etmək olardı. ABŞ və onun müttəfiqlərinin İraqa, habelə "əl-Qaidə" kimi terrorçu təşkilatlar şəbəkələrinə qarşı hərbi kampaniyaya keçməsi ilə bağlı dünyada yaranmış siyasi vəziyyət beynəlxalq iqtisadiyyatda, xüsusilə maliyyə bazarlarında neqativ meyllərin güclənməsinə tə-





### 2003-cü il ərzində ABŞ dollarının avroya qarşı məzənnəsinin və ABŞ Federal Bankının faiz dərəcəsinin dinamikası




*Qrafik 6*

kan verdi, valyuta bazarlarında qeyri-sabit vəziyyət isə daha da kəskinləşdi. ABŞ dövləti isə il ərzində hərbi sahədə və beynəlxalq terrorizmə qarşı mücadilə istiqamətində əldə etdiyi uğurlarına baxmayaraq, ilin sonuna qədər ölkə iqtisadiyyatında təşəkkül tapmış mənfi meyllərdən azad oluna bilmədi. 2003-cü ildə eyni zamanda Avropanın ayrı-ayrı iri şirkətlərini (İtaliyanın iri qida konqlomeratı "Parmalat" şirkətinin böhranı) bürümüş maliyyə qalmaqalları investorların korporativ maliyyə bazarlarına olan etimadının müəyyən qədər sarsıdılmasına şərait yaratmışdır.

Beynəlxalq maliyyə bazarlarında yaranmış neqativ meylləri nəzərə alan Neft Fondu özünün investisiya siyasətində daha mühafizəkar mövqe tutmuş, əsas kapitalın itirilməməsinə və təminatlı gəlirin əldə edilməsinə imkan verən siyasət yeritmişdir. Digər tərəfdən Neft Fondunun investisiya siyasəti əvvəlki illərə nisbətən daha aktivliyi ilə seçilmiş və Fondun vəsaitləri yüksək gəlir əldə etmək imkanını verən investisiya vasitələrinə yerləşdirilmişdir.

2003-cü il yanvar ayının 31-nə Neft Fondunun investisiya portfelinin həcmi 691,9 milyon, 31 dekabr 2003-cü il tarixinə isə 805,4 milyon ABŞ dollarına bərabər olmuşdur.

Neft Fondunun investisiya portfelinin idarə edilməsi Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a uyğun olaraq həyata keçirilmişdir. Eyni zamanda, Neft Fondunun vəsaitlərinin idarə edilməsi ilə bağlı investisiya siyasəti Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 yanvar tarixli 1134 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı), o cümlədən bu proqrama daxil olan Dövlət Neft Fondunun 2003-cü il üçün investisiya siyasəti (investisiya istiqamətləri) ilə tənzimlənmişdir. Bu proqrama uyğun olaraq Dövlət Neft Fondunun investisiya portfelinin idarə edilməsinin proqnozlaşdırılan səmərəliliyi (bençmark) üçün tələb "3 aylıq LİBOR faiz dərəcəsi" müəyyən edilmişdir.

Hesabat ilində Neft Fondunun valyuta vəsaitinin əsas hissəsi (67,2%) likvid vəziyyətdə saxlanılmışdır *(Cədvəl 8)*. Belə ki, zərurət yarandıqda investisiya portfelinin diversifika-

## Neft Fondunun aktivlərinin yerləşdirmə müddətləri
*(31.12.03 tarixinə olan vəziyyət)*

| Müddəti (il) | İnvestisiya məbləği (milyon $ ABŞ) | Xüsusi çəkisi (%) |
|---|---|---|
| 0-1 | 547,7 | 67,2 |
| 5 | 25,2 | 3,1 |
| 7 | 110,3 | 13,5 |
| 10 | 132,4 | 16,2 |
| **Cəmi** | **815,6** | **100,0** |

*Cədvəl 8*

siyasını həyata keçirmək məqsədi ilə onun müəyyən miqdarının valyuta tərkibi dəyişdirilməlidir, bunun üçün də portfelin əsas hissəsinin mümkün qədər likvid vəziyyətdə saxlanılması tələb olunur.

2003-cü ildə Neft Fondunun vəsaitlərinin yerləşdirilməsi üçün əsas investisiya istiqamətləri kimi bank depozitlərinə, pul bazarı (likvidlik) fondlarına, qiymətli kağızlara, o cümlədən istiqrazlara, indeks fondlarına investisiyalar və vəsaitlərin idarə edilməsinə xarici menecerlərin cəlb edilməsi seçilmişdir. Fondun investisiya istiqamətləri *Sxem 1-də* göstərilir.

2003-cü ilin 31 dekabr tarixinə olan vəziyyətə görə, Neft Fondunun vəsaitinin 312,1 milyon ABŞ dollarını və ya 38,3%-ni bank depozitləri, 61,9 milyon ABŞ dollarını və ya 7,5%-ni 1 (bir) günlük likvidliyə malik olan aktivlər, 267,9 milyon ABŞ dollarını və ya 32,9%-ni qiymətli kağızlar (xarici menecerlər tərəfindən idarə olunan qiymətli kağızlar istisna edilməklə), 10,6 milyon ABŞ dollarını və ya 1,3%-ni indeks fondlarına qoyulan investisiyalar təşkil etmişdir. Xarici menecerlərə idarəetməyə verilmiş vəsaitlər 163,1 milyon ABŞ dolları olmaqla investisiya portfelində 20,0% xüsusi çəkiyə malik olmuşdur. Hesabat ilində Neft Fondunun investisiya portfelinin aktivlər üzrə tərkibi *Cədvəl 9-da* göstərilir.

## Dövlət Neft Fondunun vəsaitlərinin yerləşdirilməsi istiqamətləri




*Sxem 1*





## Neft Fondunun vəsaitinin aktivlər üzrə tərkibi
*(31.12.03 tarixinə olan vəziyyət)*

| № | İnvestisiya istiqamətləri | İnvestisiyaların həcmi (milyon $ ABŞ ifadəsində*) | Valyuta vəsaitinin tərkibində xüsusi çəkisi (%) |
|---|---|---|---|
| 1. | Bank depozitləri | 312,1 | 38,3 |
| 2. | 1 günlük likvidliyə malik aktivlər | 61,9 | 7,5 |
| 3. | Qiymətli kağızlar, | 267,9 | 32,9 |
| | *o cümlədən:* | | |
| | - ABŞ Federal Agentliklərinin istiqrazları | 55,1 | 6,8 |
| | - Bank istiqrazları | 212,8 | 26,1 |
| 4. | İndeks fondları | 10,6 | 1,3 |
| 5. | Xarici menecerlərə idarəetməyə verilmiş vəsait | 163,1 | 20,0 |
| | **Cəmi** | **815,6** | **100,0** |

*Cədvəl 9*

Yuxarıda qeyd olunduğu kimi, 2003-cü ildə Neft Fondunun investisiya istiqamətlərindən birini bank depozitləri və pul bazarı (likvidlik) fondlarına investisiyalar təşkil etmişdir.

Neft Fondunun investisiyaları üzrə xarici tərəf-müqabilləri dünyanın müxtəlif ölkələrinin, o cümlədən Böyük Britaniyanın, Fransanın, ABŞ-ın, Almaniyanın, İsveçrənin və digər ölkələrin maliyyə qurumları olmuşdur. Hesabat ilində Fondun investisiyalarının yerləşdirilməsi baxımından ən böyük xüsusi çəkiyə (31,5%) malik olan ölkə Böyük Britaniya olmuşdur. Bu sırada ikinci yeri Fransa (20,6%), daha sonra Almaniya (11,2%) tutmuşdur.

## Dövlət Neft Fondunun 31.12.03 tarixinə vəsaitlərinin yerləşdirilmiş aktivlərin kredit reytinqləri üzrə təsnifatı

| İnvestisiya vasitələrinin reytinqi | Məbləğ (milyon $ ABŞ) | Xüsusi çəkisi (%) |
|---|---|---|
| AAA | 90,4 | 11,1 |
| AA+ | 25,0 | 3,1 |
| AA | 41,1 | 5,0 |
| AA- | 466,3 | 57,2 |
| A+ | 52,8 | 6,4 |
| A | 110,7 | 13,6 |
| Reytinqə malik olmayan aktivlər | 29,3 | 3,6 |
| **Cəmi** | **815,6** | **100,0** |

*Cədvəl 10*

* Buraya AZM və digər valyutalarda ifadə olunmuş və ABŞ dolları ilə qiymətləndirilmiş vəsaitlər də daxildir.

Maliyyə qurumlarının kredit reytinqi aparıcı kredit reytinq agentliklərinin (S&P, Mudiz, Fitç) "A" reytinqindən aşağı olmamışdır. Bank depozitlərinin müddəti 1 ayadək olmaqla, onların da əsas hissəsinin müddəti 1 - 2 həftə təşkil etmişdir.

2003-cü il ərzində ABŞ-ın FedFunds faiz dərəcələrinin, habelə LİBOR faiz dərəcələrinin aşağı həddə olması ilə əlaqədar olaraq Neft Fondunun bank depozitlərinə və yaxud pul bazarı fondlarına investisiyalar yerləşdirmək yolu ilə gəlir əldə etmək imkanları çox məhdud olmuşdur. Bununla əlaqədar olaraq daha yüksək gəlirliliyi təmin etmək məqsədi ilə Neft Fondunun vəsaitləri nisbətən səmərəli investisiya vasitələri olan qiymətli kağızlara yerləşdirilmişdir. Qiymətli kağızların hamısı "A" reytinqindən aşağı olmamış, əsas kapitalın itirilməməsinə zəmanət vermiş, faiz gəlirinə təminatlı olmuş və əksəriyyəti kuponların ödənişi tarixlərində emitentlər tərəfindən geri çağırıla bilərdi. Qiymətli kağızların müddəti 10 ilə qədər olmuş və əsasən 5 - 7 il təşkil etmişdir.

### Neft Fondunun investisiya portfelində qiymətli kağızların reytinqlər üzrə təsnifatı *(31.12.03 tarixinə olan vəziyyət)*

| Qiymətli kağız emitentinin reytinqi | İnvestisiya məbləği (milyon $ ABŞ) | Fondun valyuta aktivlərində xüsusi çəkisi (%) |
|---|---|---|
| AAA | 90,4 | 33,74 |
| AA+ | 25,0 | 9,33 |
| AA- | 152,5 | 56,93 |
| **Cəmi** | **267,9** | **100,0** |

*Cədvəl 11*

2003-cü ildə Neft Fondunun vəsaitlərinin bir hissəsinin idarə edilməsi xarici menecerlər vasitəsilə həyata keçirilmişdir. Vəsaitlər 3 (üç) xarici menecer - Credi Swiss qrupuna daxil olan Klariden Bankı (İsveçrə), Deutsche Bank qrupuna daxil olan Deutsche Asset Management (Almaniya) və Sosiete General Bankının "SG Asset Management" bölməsi (Fransa) tərəfindən idarə olunub. Hesabat ilində xarici menecerlərin idarəetməsinə ümumilikdə 163,1 milyon ABŞ dolları məbləğində vəsait verilmişdir ki, bu da ümumi investisiya portfelində 20%-ə bərabərdir. Az riskli və təminatlı gəlirliliyi təmin etmək məqsədi ilə menecerlər üçün bençmark olaraq 3 aylıq LİBOR müəyyən edilmişdir.

Neft Fondunun investisiya portfelinin FedFunds və ABŞ dolları üzrə 3 aylıq LİBOR faiz dərəcələri ilə müqayisəli gəlirliliyi (artan yekunla) *Qrafik 7-də* göstərilir.

Hesabat ilində Neft Fondunun vəsaitinin yerləşdirilməsi istiqamətində daha aktiv siyasət həyata keçirilmiş, investisiya portfelinin diversifikasiyası, habelə portfeldə qiymətli kağızların xüsusi çəkisinin artırılması yolu ilə investisiya portfelinin gəlirliliyi aybaay artırılmışdır. 2003-cü ilin yanvar ayında Neft Fondunun aktivləri üzrə 3% təşkil edən gəlirlilik səviyyəsi (artan yekunla) iyun ayında 6,67%, ilin sonunda isə 4,42% təşkil etmişdir. Gəlirliliyin (artan yekunla) ən yüksək səviyyəsinə (9%) may ayında nail olunmuşdur. Neft Fondunun 2003-cü ildə aylar üzrə gəlirliliyi *Qrafik 8-də* göstərilir.

Hesabat ilində Neft Fondunun vəsaitlərinin idarə edilməsi üzrə gəlirlilik - hesabat valyutası (Azərbaycan manatı) üzrə 5,08%, baza valyutası (ABŞ dolları) üzrə isə 4,42% təşkil etmişdir.

Neft Fondunun vəsaitlərinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətində Fond tərəfindən 2003-cü ildə tətbiq edilmiş yenilik xüsusi olaraq qeyd edilməlidir.



### 2003-cü ildə Neft Fondunun aktivləri üzrə gəlirliliyi *(artan yekunla, illik hesablanma üsulu ilə)*




*Qrafik 7*

### 2003-cü ildə Neft Fondunun vəsaitlərinin aylar üzrə gəlirliliyi *(illik hesablanma üsulu ilə)*




*Qrafik 8*

Bu yenilik ondan ibarət olmuşdur ki, vəsaitlərin müəyyən hissəsinin Fondun büdcə xərcləri üçün daim likvid vəziyyətdə saxlanılmasını təmin etmək və istənilən anda bu vəsaitləri təyinatı üzrə yönəltmək məqsədi ilə Fondun aktivləri iki portfel - investisiya və xərclər portfelləri üzrə idarə olunurdu. Xərclər portfeli daim likvid vəziyyətdə depozitlərdə və yaxud likvid fondlarda saxlanılırdı və bununla əlaqədar bu portfelin idarə edilməsindən illik gəlirlilik 1,0 - 1,3% səviyyəsindən yüksəlmirdi. Neft Fondunun investisiya və xərclər portfelləri üzrə gəlirlilik *Cədvəl 12-də* göstərilir.

### 2003-cü ildə Dövlət Neft Fondunun investisiya və xərclər portfelləri üzrə gəlirliliyi

| Portfelin adı | Məbləğ (orta illik, mln. manatla) | Gəlirlər (illik, mln. manatla) | Gəlirlilik (illik, %-lə) |
|---|---|---|---|
| İnvestisiya | 3 156 013,60 | 178 214, 1 | 5,55 |
| Xərclər | 536 226,90 | 5 570,0 | 1,02 |

*Cədvəl 12*

Neft Fondunun aktivlərinin digər qalan hissəsi investisiya portfeli şəklində idarə olunurdu və bu portfelin vəsaitləri yüksək gəlir əldə etmək imkanı verən vasitələrə yerləşdirilmişdir. Bununla əlaqədar olaraq xərclər portfelindən fərqli olaraq bu portfelin idarə olunmasından gəlirlilik daha yüksək səviyyədə gerçəkləşmişdir. Neft Fondunun vəsaitlərinin idarə olunmasından investisiya və xərclər portfelləri üzrə gəlirlilik (artan yekunla) *Qrafik 9-da* göstərilir.

Dövlət Neft Fondunun investisiya fəaliyyətindən əldə edilən gəlirlilik 2001-ci və 2002-ci ilə nisbətən artıb. 2003-cü ildə Neft Fondunda vəsaitlərin idarə edilməsi üzrə gəlirlilik əvvəlki ilə nisbətən daha yüksək səviyyəyə - hesabat valyutası (Azərbaycan manatı) üzrə 5,08%, baza valyutası (ABŞ dolları) üzrə isə 4,42%-ə çatmışdır. Xatırladaq ki, əvvəlki illərdə bu göstəricinin səviyyəsi 2001-ci ildə - 3,87%, 2002-ci ildə isə 2,15%-ə bərabər olmuşdur. Neft Fondunun vəsaitlərin idarə edilməsi üzrə 2001 - 2003-cü illər ərzində gəlirliliyin dəyişməsi *Qrafik 10-da* və *Qrafik 11-də* göstərilir.

### 2003-cü ildə Dövlət Neft Fondunun vəsaitlərinin idarə olunmasından investisiya və xərclər portfelləri üzrə gəlirliliyin *(artan yekunla)* müqayisəli dinamikası




*Qrafik 9*

### 2001 - 2003-cü illər ərzində ARDNF-in vəsaitlərinin idarə olunmasından illik gəlirlilik *(AZM və baza valyutası - ABŞ dolları ilə)*




*Qrafik 10*

### ARDNF-in vəsaitlərinin idarə olunmasından əldə edilmiş real gəlirlilik *(baza valyutasında - ABŞ dolları)**




*Qrafik 11*

* Mənbə: ABŞ Məşğulluq Statistikası Bürosu, ARDNF.

## 2003-cü ildə Dövlət Neft Fondunun xərcləri

2003-cü ildə Dövlət Neft Fondunun vəsaiti hesabına iki mühüm layihənin - qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli layihəsinin və Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi həyata keçirilmişdir. Eyni zamanda, hesabat ilində Fondun vəsaitlərinin bir hissəsi dövlət büdcəsinə transfert edilmişdir.

Dövlət Neft Fondunun xərclərinin strukturu *Qrafik 12-də* verilmişdir.

**2003-cü ildə Dövlət Neft Fondunun xərclərinin tərkibi *(milyon manatla)***




*Qrafik 12*

### *Qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması layihəsi*

Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin 22.08.01 tarixli 562 saylı "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında", 07.09.01 tarixli 577 saylı "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 13.05.02 tarixli 700 saylı "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanlarının icrası üzrə 2001-ci ildə həyata keçirilməyə başlanılmış tədbirlər davam etdirilmişdir. Qeyd edilən Fərmanların icrası ilə bağlı tədbirlərə Dövlət Neft Fondundan ümumilikdə 359 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin yuxarıda qeyd edilən üç Fərmanlarının icrası ilə əlaqədar və Neft Fondunun 2003-cü il büdcəsində bu məqsədlər üçün ayrılmış xərclər çərçivəsində Dövlət Neft Fondu tərəfindən 99 812,9* milyon manat maliyyələşdirilib.

* Auditor hesabatında göstərilmiş Dövlət Neft Fondunun yuxarıda qeyd edilən layihələrin maliyyələşdirilməsi ilə bağlı xərclərin məbləği ilə fərqin səbəbi auditorlar tərəfindən bu məbləğin 89 812,9 milyon manatının Fond tərəfindən Dövlətqaçqınkoma birbaşa ödənişi, 10 000,0 milyon manatın isə dövlət büdcəsinə ƏDV kimi hesab olunmasıdır.





**Qaçqınların və məcburi köçkünlərin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı layihələrin maliyyələşdirilməsi üzrə 2003-cü ildə ayrılmış vəsaitin həcmi**




*Qrafik 13*

* Bu məbləğə eyni zamanda Vergilər Nazirliyinin Baş maliyyə xəzinədarlığındakı hesabına köçürülmüş 10 milyard manat daxildir.

Bu xərclər Fondun büdcə xərclərinin 8,46%-ni təşkil etmişdir. Neft Fondunun bu istiqamətdə həyata keçirdiyi ödənişlərin aylar üzrə dinamikası *Qrafik 13-də* göstərilir.

2003-cü ildə qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllinə dair layihələr üzrə ayrılması nəzərdə tutulmuş vəsaitlərin istifadə olunma səviyyəsi əvvəlki ilə nisbətən aşağı olmuşdur, bu da onunla bağlıdır ki, vəsaittutumlu tikinti işlərinin əsas hissəsi 2002-ci ildə başlanmış və görülmüş, 2003-cü ildə isə bu işlərin tamamlanması həyata keçirilmişdir.



**Məcburi köçkünlər üçün salınmış yeni yaşayış qəsəbəsi (Biləsuvar rayonu)**





**Biləsuvar rayonunda məcburi köçkünlər üçün tikilmiş infrastruktur obyektləri (məktəb binası, yanğınsöndürmə məntəqəsi, elektrik yarımstansiyası)**







2003-cü ildə Azərbaycanın müxtəlif rayonlarında, habelə Bakı və Sumqayıt şəhərlərində qaçqın və məcburi köçkünlər üçün yaşayış evlərinin tikintisi davam etdirilmiş, bir sıra sosial-mədəni obyektlərin, eləcə də növbəti 3 ədəd məktəb binasının, 3 ədəd səhiyyə obyektinin, 8 ədəd hamamın, 2 ədəd polis məntəqəsinin, 11 ədəd rabitə evinin, 18 ədəd uşaq bağçasının tikintisi başa çatdırılmış, qəsəbələrdə enerji obyektlərinin, qaz və su təchizatı və irriqasiya sistemlərinin, qəsəbədaxili və xarici yolların tikintisi, habelə qəsəbələrin telefonlaşdırılması işləri aparılmışdır.

2003-cü ildə eyni zamanda Azərbaycan Respublikası Prezidentinin yuxarıda qeyd edilən 07 sentyabr 2001-ci il tarixli 577 saylı, habelə 13 may 2002-ci il tarixli 700 saylı Fərmanlarının icrasına uyğun olaraq məcburi köçkün ailələrinə kənd təsərrüfatı ilə məşğul olmaları üçün Dövlət Neft Fondundan 4 909,0 milyon manat dəyərində birdəfəlik əvəzsiz maliyyə yardımı (hər bir ailəyə 1 milyon manat olmaqla) ayrılmışdır.

Qeyd olunan layihələrin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər Dövlət Neft Fondu tərəfindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin müvafiq qaydada əsaslandırılmış sifarişləri əsasında Komitənin dövlət xəzinədarlığındakı hesabına köçürülmüş və sonra sifarişçi təşkilatlar vasitəsi ilə podratçı təşkilatlara ödənilmişdir. Ermənistan ərazisindən didərgin salınmış azərbaycanlıların məskunlaşması probleminin həlli ilə əlaqədar layihənin əsas sifarişçisi kimi Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik çıxış edir. Həmin layihənin yarımçıq qalmış evlərin tikintisi ilə bağlı hissəsinin sifarişçisi Dövlətqaçqınkomun Tikilməkdə olan Müəssisələr Müdiriyyətidir. Ağdam və Füzuli rayonlarından didərgin düşmüş məcburi köçkünlərin məskunlaşdırılması problemlərinin həlli ilə bağlı layihənin sifarişçisi kimi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu çıxış edir. Biləsuvarda məskunlaşmış məcburi köçkünlərlə bağlı Prezident Fərmanının icrası ilə əlaqədar sifarişçi funksiyalarını Füzuli rayonunun Haramı ərazisində qəsə-

## Qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması layihəsinin maliyyələşdirilməsi üzrə 2003-cü ildə Neft Fondunun xərclərinin təsnifatı *(milyard manat)*

| | Ödənilmişdir | | | |
|---|---|---|---|---|
| | **Azərbaycan Respublikası Prezidentinin 22.08.01-ci il tarixli 562 N-li Fərmanı üzrə** | **Azərbaycan Respublikası Prezidentinin 07.09.01-ci il tarixli 577 N-li Fərmanı üzrə** | **Azərbaycan Respublikası Prezidentinin 13.05.02-ci il tarixli 700 N-li Fərmanı üzrə** | **Vergilər Nazirliyinin xüsusi hesabına köçürülmüş əlavə dəyər vergisi** |
| Yaşayış evlərinin tikintisi | 13,28 | 4,53 | 17,66 | |
| İnfrastruktur və sosial-mədəni obyektlərin tikintisi | 4,15 | 11,87 | 31,94 | |
| Layihə işlərinin görülməsi | 0,08 | 0,11 | 0,36 | **10,0** |
| Maliyyə yardımları | – | 1,27 | 3,64 | |
| Sifarişçi təşkilatların ofislərinin saxlanılması xərcləri | | | **0,93** | |
| **Cəmi** | **17,51** | **17,78** | **54,53** | **10,0** |

*Cədvəl 13*

bələrin inşası üzrə - Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik, Biləsuvar rayonunda qəsəbələrin inşası üzrə - Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu icra edir. Sifarişçi təşkilatlar layihələrin icrasına cari nəzarəti həyata keçirir, müvafiq tenderlərin keçirilməsini və digər müvafiq prosedurların aparılmasını təmin edir, yerlərdə açılmış ofisləri vasitəsilə işləri təşkil edir və əlaqələndirir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 iyul 2003-cü il tarixli 137s N-li Sərəncamına uyğun olaraq 2003-cü ildə sifarişçi təşkilatların əməliyyat xərcləri ümumilikdə 927,8 milyon manat, o cümlədən Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu üçün 689,5 milyon manat, Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik üçün 238,3 milyon manat müəyyən edilmişdir. 2003-cü ildə layihələrin həyata keçirilməsi ilə bağlı Dövlət Neft Fondunun xərclərinin təsnifatını *Cədvəl 13* əks etdirir.

## *Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi*

2003-cü ildə Dövlət Neft Fondunun vəsaitlərinin mühüm hissəsi Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 N-li "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərmanının icrasına uyğun olaraq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə yönəldilmişdir. Dövlət Neft Fondu adı çəkilən layihənin maliyyələşdirilməsini 2002-ci ilin oktyabr ayından etibarən həyata keçirməyə başlamışdır.

2003-cü ildə Dövlət Neft Fondu tərəfindən BTC layihəsinin maliyyələşdirilməsi üzrə ümumilikdə 117 284,6 min ABŞ dolları və ya **576 000,0* milyon manat** məbləğində vəsait ödənilmişdir. Bu xərclər Fondun büdcə xərclərinin 48,81%-ni təşkil etmişdir.

*Cədvəl 14-də* BTC layihəsi üzrə 2003-cü ildə Neft Fondu tərəfindən icra edilmiş ödənişlər göstərilir.

Neft Fondunun 2002 - 2003-cü il büdcələrinə əsasən, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi məqsədi ilə Neft Fondundan ümumilikdə 166,8 milyon ABŞ dolları məbləğində vəsait ödənilmişdir.

Bu məbləğə eyni zamanda BTC layihəsinin maliyyələşdirilməsi məqsədi ilə layihənin sponsorlar qrupu şirkətlərinə müvəqqəti maliyyələşdirmə krediti üzrə Neft Fondunun 2003-cü ildə köçürdüyü faiz ödənişləri də daxildir.

**2003-cü ildə BTC layihəsinin maliyyələşdirilməsi üzrə Neft Fondu tərəfindən icra edilmiş ödənişlər**

| Tarix | Ödənilib | |
|---|---|---|
| | min $ ABŞ | mln. AZM |
| I rüb | 25 502,0 | 124 987,1 |
| II rüb | 73 001,0 | 358 653,4 |
| III rüb | 18 500,0 | 90 976,5 |
| IV rüb | 281,6 | 1 383,0 |
| **Cəmi** | **117 284,6** | **576 000,0** |

*Cədvəl 14*

* Auditor hesabatında göstərilmiş BTC layihəsinin maliyyələşdirilməsi üzrə xərclərinin məbləği ilə fərqin səbəbi bu məbləğə auditorlar tərəfindən ARDNŞ tərəfindən hesabat ilinin mənfəət neftinin son partiyasının satışından əldə olunmuş mədaxildən şirkətin xeyrinə tutulmuş və ARDNF-ə mədaxil olmamış 40 615,7 milyon manat (8,25 mln. ABŞ dolları) məbləğində vəsaitin daxil edilməsidir.



### Bakı-Tbilisi-Ceyhan boru kəmərinin inşasının maliyyələşdirilməsi

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin inşasının maliyyələşdirilməsini təmin etmək məqsədi ilə Boru kəməri konsorsiumuna (BTC Company) daxil olan sponsorlar qrupu (o cümlədən 25%-lik iştirak payına malik olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) tərəfindən layihənin 30%-nin öz vəsaitləri hesabına, 70%-nin isə kreditləri cəlb etmək yolu ilə maliyyələşdirilməsi barədə qərar qəbul edilmişdir.

Layihə üzrə xərclərin 1 mlrd. ABŞ dolları iştirakçıların öz vəsaitləri, 2,6 mlrd. ABŞ dolları isə cəlb ediləcək kreditlər hesabına maliyyələşdirilir (kreditin 200 mln. ABŞ dolları məbləğində artırılması iştirakçıların əlavə ehtiyat vəsaitinin yaradılması üçün edilir).

Layihə üçün sponsorlar şirkətləri tərəfindən Kayman adalarında xüsusi məqsədli törəmə şirkətlər yaradılmışdır ki, bu şirkətlər BTC Company şirkətində sponsor şirkətlərinin mütənasib paylarının sahibi olmuşlar. Bu üsulla ARDNŞ tərəfindən təsis edilmiş Azərbaycan BTC Ltd şirkəti BTC Company şirkətində 25%-lik iştirak payını əldə etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 nömrəli və 01 noyabr 2002-ci il tarixli 811 nömrəli Fərmanlarına uyğun olaraq ARDNŞ-in AzBTC şirkətindəki 70%-lik payı İqtisadi İnkişaf Nazirliyinə verilmiş və bu payın maliyyələşdirilməsi Azərbaycan Respublikası Dövlət Neft Fonduna həvalə edilmişdir.

2002 - 2003-cü illər ərzində Azərbaycan BTC Ltd şirkətinin iştirak payının maliyyələşdirilməsi üçün Azərbaycan iştirakçıları (ARDNŞ və İİN) 250 milyon ABŞ dolları ödəmişlər. Layihə üzrə kredit vəsaitlərinin alınmasında ləngimələrin olması səbəbindən 18 avqust 2003-cü il tarixindən etibarən AzBTC şirkətinin iştirak payının müvəqqəti maliyyələşdirilməsini (2004-cü ilin mart ayınadək) BTC şirkətinə daxil olan 6 şirkət öz üzərlərinə götürmüşdür. Müvəqqəti maliyyələşdirmənin faiz dərəcəsi (inflyasiya nəzərə alınmadan) 12,5% təşkil edir.



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakı-Tbilisi-Ceyhan boru kəmərinin inşası vəziyyətinə baxış keçirərkən**

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri (BTC) layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi ilə bağlı Neft Fondunun ödənişlərinin illər üzrə dinamikası *Qrafik 14-də* göstərilir.

**2002-2003-cü illər ərzində Dövlət Neft Fondu tərəfindən Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri (BTC) layihəsinin maliyyələşdirilməsi**




## *Azərbaycan Respublikası 2003-cü il dövlət büdcəsinə transfert*

2003-cü ildə Dövlət Neft Fondunun vəsaitinin mühüm hissəsi dövlət büdcəsinə transfert edilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2003-cü il büdcəsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2003-cü il tarixli 848 nömrəli Fərmanına, habelə Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2003-cü il büdcəsinin icrası ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2003-cü il tarixli 1134 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2003-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərinə (proqramına) uyğun olaraq hesabat ilində Dövlət Neft Fondundan dövlət büdcəsinə **500 000,0 milyon manat** məbləğində vəsait köçürülmüşdür. Vəsaitlər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sifarişləri əsasında Nazirliyin Baş Xəzinədarlığındakı hesabına köçürülüb. Bu köçürmələrlə bağlı xərclər Fondun büdcə xərclərinin 42,37%-ni təşkil etmişdir.

## 2003-cü ildə Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri

Dövlət Neft Fondu haqqında Əsasnaməyə uyğun olaraq Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər smetası Fondun İcraçı Direktorunun təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Neft Fondunun 2003-cü ildə idarə edilməsi ilə bağlı xərclər smetası Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2003-cü il tarixli 1134 N-li Sərəncamı ilə təsdiq edilmişdir.

2003-cü ildə Neft Fondunun idarə edilməsi ilə bağlı ümumi xərcləri büdcədə nəzərdə tutulduğundan (5 338,0 milyon manat) 19,3% az istifadə edilərək 4 307,3* milyon manat təşkil etmişdir. Bu xərclərin tərkibində işçilərin əmək haqları ilə bağlı xərclər - 325,7 milyon manat (6,1%), Dövlət Sosial Müdafiə Fonduna ayırmalar - 84,8 milyon manat (1,6%), malların alınması və xidmətlərin (dəftərxana, ezamiyyə, nəqliyyat, xarici auditin keçirilməsi, mühafizə, rabitə, kommunal, bank, konvertasiya, xarici auditin keçirilməsi və s.) haqqının ödənilməsi - 1 444,1 milyon manat (26,8%), əsas vəsaitlərin alınması - 928,6 milyon manat (17,6%), əsaslı təmir xərcləri - 1 518,9 milyon manat (28,5%), qeyri-maddi aktivlərin alınması isə 5,2 milyon manat (0,1%) təşkil etmişdir.

* Auditor hesabatında göstərilmiş Fondun idarə edilməsi ilə bağlı xərclərin məbləği ilə fərqin səbəbi auditor hesabatında əsas vəsaitlərin və qeyri-maddi aktivlərin alınması, əsaslı təmir, habelə ödənilmiş ƏDV ilə bağlı xərclərin idarəetmə xərclərinə aid edilməməsi olmuşdur.





Neft Fondunun vəsaitlərinin xarici menecerlərə idarəetməyə verilməsi ilə bağlı menecerlər tərəfindən tutulan komisyon haqları Fondun xərclər smetasına daxil olmayaraq qarşılıqlı hesablaşma qaydasında bilavasitə idarəetməyə verilmiş investisiya portfelindən tutulmuşdur. 2003-cü ildə idarəetməyə verilmiş investisiya portfelləri üzrə xarici menecerlər tərəfindən ümumilikdə **288,9 min ABŞ dolları** məbləğində komisyon haqqı tutulmuşdur.

## *Dövlət büdcəsinə vergi ödənişləri*

2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişikliklərə uyğun olaraq Neft Fondunun mənfəəti vergiyə cəlb olunur. Eyni zamanda, Neft Fondu tərəfindən Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, mənbədən tutulan vergilər ödənilir. Digər növ vergilərdən isə Fond azaddır. 2003-cü ilin nəticələrinə görə, mənfəət vergisinin ümumi məbləği 45 445,6 milyon manat təşkil etmişdir. Hesabat ili ərzində dövlət büdcəsinə 12 000,0 milyon manat mənfəət vergisi və 469,1 milyon manat digər vergi ödənişləri ödənilmişdir. 2004-cü ilin əvvəlində 2003-cü ilin nəticələrinə görə dövlət büdcəsinə qalan 32 976, 5 milyon manat mənfəət vergisi köçürülmüşdür. Mənfəət vergisinin məbləği balans mənfəətinin hesablanması əsasında müəyyən edilmişdir.

Neft Fondunun maliyyə fəaliyyətinin auditini aparmış "Ernst ənd Yanq" şirkəti tərəfindən əlavə olaraq Neft Fondunun vergi auditi də keçirilmişdir.

## Neft Fondunun 2003-cü il büdcəsinin icrası

Dövlət Neft Fondunun 2003-cü il büdcəsi Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2003-cü il tarixli 848 N-li Fərmanı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2003-cü il büdcəsinin gəlirləri nəzərdə tutulduğundan (1 219 516,0 milyon manat) 49% artıq icra edilərək 1 820 493,2 milyon manat təşkil etmişdir. Gəlirlərin mənbələr üzrə icra vəziyyətini *Cədvəl 15* əks etdirir.

2003-cü il ərzində mənfəət neftinin satışından əldə edilmiş gəlir (869 008,3 milyon manat) büdcədə nəzərdə tutulmuş vəsaitdən (735 000,0 milyon manat) 134 008,3 milyon manat və ya 18,0% artıq olmuşdur. Bu, hesabat ili ərzində beynəlxalq bazarlarda mövcud olmuş neft qiymətlərinin büdcə proqnozlarının əsaslandığı səviyyədən (1 barrel üçün 20 ABŞ dolları) yüksək olması ilə bağlı olmuşdur.

Bonus ödənişləri ilə bağlı daxilolmalar (608 945,8 milyon manat) büdcədə nəzərdə tutulduğundan (326 873,0 milyon manat) 282 072,8 milyon manat və ya 86% artıq olmuşdur. Bu mənbə üzrə gəlirlərin həcmi proqnozlaşdırılarkən Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 N-li "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərmanının icrasına uyğun olaraq Azərbaycan Respublikası Milli Bankından Dövlət Neft Fonduna 2003-cü ildə köçürüləcək 65,4 milyon ABŞ dolları məbləğində vəsait nəzərdə tutulmuşdur. Xatırladaq ki, bu Fərmanla Milli Bankdan kö-

## Neft Fondunun 2003-cü il büdcəsinin gəlir maddələrinin icrası

| Sıra №-si | Gəlir mənbələri | Gəlirlərin məbləği (mln. AZM) Təsdiq olunmuş | Faktiki | İcra faizi |
|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının payına düşən xam neftin satışından əldə edilən gəlir (qanunvericiliklə nəzərdə tutulmuş ödənişlər çıxılmaq şərti ilə) | 735 000,0 | 869 008,3 | 118 |
| 2. | Bonus ödənişləri | 326 873,0 | 608,945,8 | 186 |
| 2. | Akrhesabı ödənişlər | 46 975,0 | 94 555,3 | 201 |
| 3. | Xarici şirkətlərlə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icarə haqqı | 2 400,0 | 586,4 | 24 |
| 4. | Fondun vəsaitinin yerləşdirilməsindən əldə edilən gəlir | 45 868,0 | 183 784,1 | 400 |
| 6. | Digər gəlirlər və daxilolmalar | 62 400,0 | 63 613,3 | 102 |
| | **Cəmi** | **1 219 516,0** | **1 820 493,2** | **149** |

*Cədvəl 15*

çürülməli olan 118 milyon ABŞ dolları həcmində məbləğin bir hissəsi (52,6 milyon ABŞ dolları) Neft Fonduna 2002-ci ildə köçürülmüşdür.

Beləliklə, 2003-cü ildə 608,9 milyard manat məbləğində bonus ödənişlərinin 320,7 milyard manatını və yaxud 65,4 milyon ABŞ dollarını yuxarıda qeyd olunan Fərmanın icrasına uyğun olaraq AR Milli Bankından Dövlət Neft Fonduna köçürülmüş vəsait təşkil edib. Hesabat ilində büdcə üzrə nəzərdə tutulmuş vəsaitlə bərabər, Neft Fonduna proqnozlaşdırılmamış iki əlavə bonus ödənişləri də daxil olmuşdur. Bunlardan biri Ekson-Mobil şirkətinin (ABŞ) Zəfər-Məşəl yataqlarında qazma işlərinin başlanılması ilə əlaqədar köçürdüyü 49,1 milyard manat və ya 10,0 milyon ABŞ dolları həcmində vəsait, digəri isə LUKoyl (Rusiya) şirkətinin D-222 Bloku üzrə kontrakt ərazisinin artırılmasına görə ödədiyi 239,1 milyard manat və yaxud 48,6 milyon ABŞ dolları həcmində bonus ödənişləridir.

Akrhesabı ödənişlərdən daxilolmalar nəzərdə tutulduğundan (46 975,0 milyon manat) 47 580,3 milyon manat və yaxud 101% artıq icra edilərək 94 555,3 milyon manat olmuşdur. Xariçi şirkətlərlə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icarə haqqı 586,4 milyon manat təşkil edərək nəzərdə tutulduğundan (2 400,0 milyon manat) 76% az gerçəkləşmişdir. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 07 fevral tarixli 849 saylı Fərmanı ilə Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktlarında dəyişikliklər edildikdən sonra bu mənbə artıq Fondun formalaşdırılması mənbəyini təşkil etmir və icarə haqqı ilə bağlı hesabat ilində Neft Fonduna mədaxil edilmiş bu məbləğ qeyd olunan gəlir mənbəsi üzrə son köçürməni təşkil etmişdir.

Bakı-Supsa ixrac boru kəməri vasitəsilə neftin Azərbaycan ərazisi ilə ötürülməsindən 63 613,3 milyon manat və neft-qaz sazişləri çərçivəsində sərmayəçilər tərəfindən verilən aktivlərdən 24,4 milyon manat gəlir əldə edilmişdir. Bu gəlirlərdən (büdcədə "digər gəlirlər və daxilolmalar" kimi əks etdirilmişdir) faktiki daxilolmalar (63 613,3 milyon manat) proqnozlaşdırılan səviyyəyə (62 400,0 milyon manat) nisbətən təqribən 2,0% artıq olmuşdur.

Fondun vəsaitinin yerləşdirilməsindən əldə edilmiş gəlirlər büdcədə nəzərdə tutulduğundan (45 868,0 milyon manat) 300% daha yüksək səviyyədə (183 784,1 milyon manat) gerçəkləşmişdir. Əldə edilmiş mənfəətdən 67 195,8 milyon manatı və yaxud





## Neft Fondunun 2003-cü il büdcəsinin xərc maddələrinin icrası

| Sıra №-si | Xərc istiqamətləri | Xərclərin məbləği (mln. AZM) Təsdiq olunmuş | Faktiki | İcra faizi |
|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 avqust tarixli 562 nömrəli "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında", 2001-ci il 07 sentyabr tarixli 577 nömrəli "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 2002-ci il 13 may tarixli 700 N-li "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanlarının icrası ilə bağlı xərclər | 136 417,0 | 99 812,9 | 73 |
| 2. | Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyul tarixli 739 nömrəli Fərmanına əsasən Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi ilə bağlı xərclər | 576 000,0 | 576 000,0 | 100 |
| 3. | Azərbaycan Respublikası 2003-cü il dövlət büdcəsinə transfert | 500 000,0 | 500 000,0 | 100 |
| 4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 5 338,0 | 4 307,3 | 81 |
| | **Cəmi** | **1 217 755,0** | **1 180 120,2** | **97** |
| | 2003-cü ildə dövlət büdcəsinə ödənilmiş mənfəət vergisi | | 12 000,0 | |

*Cədvəl 16*

36,5%-i valyuta aktivlərinin yenidən qiymətləndirilməsindən (məzənnə fərqindən) əldə edilmişdir. Fondun vəsaitlərinin yerləşdirilməsindən əldə edilmiş ümumi gəlirlərdən bu məbləği çıxmaqla faiz gəlirləri və dividendlərdən əldə olunmuş qalan 116 588,3 milyon manat məbləğində gəlirlər yenə də büdcədə nəzərdə tutulmuş göstəricidən (45 868,0 milyon manat) 2,5 dəfə çox olacaqdır.

Hesabat ilinin yekunlarına görə, Neft Fondunun 2003-cü il büdcəsində nəzərdə tutulmuş xərclər (1 217 755,0 milyon manat) 3,0% kəsirlə icra edilərək 1 180 120,2 milyon manat təşkil etmişdir. 2003-cü il ərzində dövlət büdcəsinə 12 000,0 milyon manat mənfəət vergisi də köçürülmüşdür.

Xərclərin təsdiq edilmiş istiqamətləri üzrə icra vəziyyətini *Cədvəl 16* əks etdirir.

Azərbaycan Respublikası Prezidentinin yuxarıda qeyd olunan Fərmanlarının icrası ilə əlaqədar qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşması problemlərinin həlli ilə bağlı layihələrin maliyyələşdirilməsi üzrə 2003-cü ildə Neft Fondunun büdcəsindən ayrılması nəzərdə tutulmuş vəsaitin həcmi 136 417,0 milyon manat təşkil edirdi. Hesabat ilində Dövlətqaçqınkomun sifarişlərinə əsasən, bu layihələr üçün Dövlət Neft Fondundan faktik olaraq 27,0% az, yəni 99 812,9 milyon manat vəsait istifadə olunmuşdur. Fondun 2003-cü il üçün büdcəsində nəzərdə tutulmuş Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi (576 000,0 milyon manat), habelə dövlət büdcəsinə transfert (500 000,0 milyon manat) ilə bağlı xərclər tam şəkildə (100,0%) icra olunmuşdur.

Bununla yanaşı, 2003-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) tərəfindən hesabat ilinin mənfəət neftinin dekabr ayındakı partiyasının satışından əldə olunmuş mədaxildən 8,25 milyon ABŞ dolları məbləğində vəsait şirkətin xeyrinə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 nömrəli və 01 noyabr 2002-ci il tarixli 811 nömrəli Fərmanlarının icrasına uyğun olaraq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycanın 25%-lik iştirak payı Azərbaycan BTC limited şirkəti vasitəsilə həyata keçirilərək maliyyələşdirildiyindən və bu şirkətin səhmlər zərfi ARDNŞ və İqtisadi İnkişaf Nazirliyi (İİN) arasında 30/70 faiz nisbətinə uyğun bölüşdürüldüyündən layihə başlayandan Azərbaycan tərəfi öz daxili vəsaitləri hesabına bu layihə üçün ümumilikdə 250 milyon ABŞ dolları ödəmişdir ki, bu da öz növbəsində yuxarıda qeyd olunan faiz nisbətinə uyğun olaraq 75 və 175 milyon ABŞ dolları təşkil edir. ARDNŞ tərəfindən BTC layihəsi üzrə ümumilikdə 83,25 milyon ABŞ dolları, İİN-in payının maliyyələşdirilməsini həyata keçirən ARDNF tərəfindən isə 166,75 milyon ABŞ dolları ödənilmişdir. Qeyd olunan faiz nisbətlərini tənzimləmək və Azərbaycan tərəfinin hər bir iştirakçısının (İİN və ARDNŞ) bu layihədə paylarını nizama salmaq məqsədi ilə ARDNŞ tərəfindən hesabat ilinin mənfəət neftinin son partiyasının satışından əldə olunmuş mədaxildən 8,25 milyon ABŞ dolları və yaxud 40 606,5 milyon manat vəsait şirkət tərəfindən tutularaq əvəzləşdirilmişdir.

Neft Fondunun idarə edilməsi ilə bağlı Fondun 2003-cü il büdcəsində nəzərdə tutulmuş (5 338,0 milyon manat) xərclər 4 307,3 milyon manat səviyyəsində icra edilmişdir.

# NEFT FONDUNUN İDARƏETMƏ SİSTEMİ



2003-cü ildə Neft Fondunun bütün idarəetmə strukturlarının səlahiyyətləri qanunvericiliklə nəzərdə tutulmuş qaydada icra edilmişdir. Dövlət Neft Fondunun fəaliyyəti Fondun ali rəhbəri olan Azərbaycan Respublikası Prezidentinin daim diqqət mərkəzində olmuşdur.

Qanunvericiliyə uyğun olaraq Dövlət Neft Fondunun fəaliyyətinə nəzarəti dövlət orqanlarının və ictimai təşkilatların nümayəndələrindən təşkil edilən Müşahidə Şurası həyata keçirir. Hesabat ilində Müşahidə Şurası tərəfindən Neft Fondunun fəaliyyətinin aktual məsələlərinə, o cümlədən Fondun beynəlxalq standartlara uyğun yeni mühasibat uçotu sisteminə keçməsinə dair vacib qərarlar qəbul edilmişdir.

2003-cü ildə Dövlət Neft Fondunun Müşahidə Şurası tərəfindən, Şuranın reqlamentinin (prosedur qaydalarının) 6.6 saylı bəndinə uyğun olaraq, iclas keçirilmədən sorğu vasitəsilə bir neçə qərar qəbul edilmişdir. Müşahidə Şurası Neft Fondunun 2002-ci ildə maliyyə fəaliyyəti haqqında müstəqil auditorun ("Ernst ənd Yanq" şirkətinin) rəyini nəzərə alaraq Neft Fondunun 2002-ci ildə fəaliyyəti haqqında illik hesabatını bəyəndi. Şuranın digər qərarı ilə Dövlət Neft Fondunun 2002-ci il büdcəsinin icrası barədə hesabatı məqbul hesab edildi və Azərbaycan Respublikasının Prezidentinə təsdiq olunmaq üçün təqdim edilməsi tövsiyə edildi.

Müşahidə Şurasının daha bir qərarı ilə Neft Fondunun "Deloyt ənd Tuş" şirkəti ilə əməkdaşlıqda hazırladığı "Dövlət Neft Fondunun uçot siyasəti və mühasibat

uçotu qaydaları" məqbul hesab edildi və 2004-cü ildə Fondun Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun yeni mühasibat uçotu sisteminə keçidinə razılıq verildi.

Hesabat ilində Fonddaxili strukturlar arasında sıx əlaqə və səlahiyyətlərin bölgüsü təmin edilmiş, icra intizamı və daxili intizam gücləndirilmişdir. Neft Fondunun büdcə qaydalarına uyğun olaraq Fondun 2003-cü il büdcəsinin icrası təmin edilmişdir.

# NEFT FONDUNUN NORMATİV-HÜQUQİ BAZASININ İNKİŞAFI



Hesabat ilində Neft Fondunun normativ-hüquqi bazasının inkişaf etdirilməsi, Fondun mühasibat uçotu sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

2003-cü ilin fevral ayında Dövlət Neft Fondunun vəsaitinin formalaşma mənbələrinin və istifadəsi qaydalarının təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən Fondun normativ əsaslarının inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən Fərman imzalanmışdır. Prezidentin 07 fevral 2003-cü il tarixli 849 saylı Fərmanı ilə Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktlarında dəyişikliklər edilmişdir. Bu Fərmana əsasən, "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 dekabr tarixli 240 nömrəli, "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" 2000-ci il 29 dekabr tarixli 434 nömrəli, "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydalarının təsdiq edilməsi haqqında" 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanlarda Fondun formalaşdırılması mənbələri və büdcəsinin gəlir maddələri ilə bağlı müddəalarının redaksiyası dəyişdirilmişdir. Yeni redaksiyaya əsasən, Fondun formalaşdırılması mənbələrindən və büdcəsinin gəlir maddələrindən xarici şirkətlərlə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icarə haqqı ilə bağlı gəlir mənbəyinə dair maddə çıxarılmış, digər mənbələrin ifadəsi isə daha aydın, geniş və dəqiq şəkildə

göstərilmişdir. Eyni zamanda, yeni sənəddə Fondun formalaşma mənbələrinə, habelə büdcəsinin gəlir maddələrinə qrantlar və digər təmənnasız yardımlarla bağlı gəlirlər, habelə qanunvericiliyə uyğun olaraq digər gəlirlər və daxilolmalarla əlaqədar mənbələr əlavə olunmuşdur.

Azərbaycanda həyata keçirilən büdcə siyasətinin möhkəmləndirilməsi məqsədi ilə 2003-cü ildə ölkənin büdcəsi ilə bağlı, habelə büdcədənkənar fondlarının icmal büdcə ilə əlaqələrini tənzimləyən qanunvericilikdə də mütərəqqi dəyişikliklər baş vermişdir. 2003-cü il mayın 13-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra əlavə və dəyişikliklər edilmişdir. Bu əlavə və dəyişikliklərin mütərəqqiliyi ondan ibarətdir ki, Azərbaycanda vahid makroiqtisadi və büdcə siyasətinin həyata keçirilməsinin qanunverici bazası təkmilləşmiş, büdcədənkənar dövlət fondlarının statusu daha aydın şəkildə göstərilərək icmal büdcəyə daxil olan bütün büdcələrin, o cümlədən dövlət büdcəsi ilə büdcədənkənar Dövlət Fondlarının büdcələrinin qarşılıqlı münasibətləri və əlaqələri qanunvericiliklə təsbit edilmişdir. "Büdcə sistemi haqqında" yeni Qanuna görə, büdcədənkənar dövlət fondları - qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar büdcəyə malik olan məqsədli dövlət maliyyə fondlarıdır. Digər bir dəyişikliyə əsasən, büdcədənkənar dövlət fondlarının bütün xərcləri (Dövlət Neft Fondunun əməliyyat xərcləri və beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla) icmal büdcənin xərclərinə daxil edilir.



# NEFT FONDUNUN DAXİLİ İDARƏETMƏ və İNZİBATİ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN TƏŞKİLİ



## İnformasiya idarəetmə sistemləri

Əvvəlki illərdə olduğu kimi, 2003-cü ildə də Neft Fondunun informasiya idarəetmə sistemlərinin təkmilləşdirilməsi və yüksək standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Neft Fondunun yerləşdiyi yeni inzibati bina müasir tələblərə cavab verən kompüter şəbəkəsi, peyk telekommunikasiya avadanlığı vasitəsilə etibarlı İnternet sisteminə qoşulmuşdur.

Neft Fondunun valyuta vəsaitinin xarici maliyyə bazarlarında səmərəli idarə edilməsini təmin etmək və buna dair operativ qərarların qəbul edilməsi məqsədi ilə ilk növbədə müxtəlif valyutaların məzənnələri, investisiya aktivlərinin real qiymətləri, habelə pul və maliyyə bazarının müxtəlif vasitələri haqqında canlı (real vaxt rejimində) məlumatların təmin edilməsi tələb olunur. Qeyd edilən məlumatlardan daimi istifadəni təmin etmək məqsədi ilə Dövlət Neft Fondu canlı şəkildə maliyyə bazarlarından birbaşa məlumatı təqdim edə bilən, beynəlxalq miqyasda tanınmış "Blümberq" şirkəti ilə müqavilə bağlamışdır.

## Neft Fondunun inzibati-təsərrüfat fəaliyyəti

2003-cü ildə Dövlət Neft Fondunun həyatında baş vermiş əlamətdar hadisələrdən biri Fondun yeni inzibati binaya köçməsi olmuşdur. Məlum olduğu kimi, Neft Fondu-

nun fəaliyyəti yarandığı vaxtdan keçən ilin son aylarına qədər müvəqqəti olaraq ARDNŞ-ə məxsus olan Bakı şəhəri, Sabit Orucov küçəsi - 28 ünvanında yerləşən binasının inzibati sahəsində həyata keçirilmişdir. Fondun normal səviyyədə fəaliyyət göstərməsi üçün zəruri şəraitin yaradılması məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 may 2002-ci il tarixli 99s N-li Sərəncamı ilə Bakı şəhəri, Bülbül prospekti - 20 ünvanında yerləşən inzibati bina Dövlət Neft Fondunun balansına verilmişdir. 2002-ci ilin sonunda yeni binada başlanmış təmir işləri 2003-cü ildə başa çatdırılmışdır.

## Neft Fondunun inzibati binasının əsaslı təmiri

Yeni inzibati binada təmir işlərinin aparılması məqsədi ilə Neft Fondunun 2002-ci il və 2003-cü il üçün büdcələrində bu məqsədlər üçün müvafiq vəsaitlər ayrılmışdır. Hesabat ilində inzibati binanın əsaslı təmiri ilə bağlı işlər üç istiqamətdə (əsaslı təmir; istilik təchizatı, kondisionerləndirmə və ventilyasiya sistemlərinin quraşdırılması; lift qurğusunun quraşdırılması) həyata keçirilmişdir. Əsaslı təmir işləri layihə institutunun müəllif nəzarəti altında aparılmış, dizayn tərtibatı və interyerin düzümü ilə bağlı işlərə isə bu məqsədlə cəlb edilmiş memar-dizayner rəhbərlik etmişdir.

Görülmüş işlər xüsusi yaradılmış komissiya tərəfindən yoxlanıldıqdan sonra hər müqavilə üzrə müvafiq akt tərtib edilmiş və işlər qəbul edilmişdir. Eyni zamanda, işlərin yoxlanılmasının nəticələrinə əsasən, Komissiya tərəfindən binada əlavə təmir işlərinin aparılması tövsiyə edilmişdir. Məsələ Neft Fondunun Satınalmalar Komissiyasında müzakirə edilmiş, mütəxəssislərin və təmir-tikinti müəssisələrinin rəyləri əsasında aparılacaq işlərin təqribi dəyəri müəyyən edilərək podratçı təşkilatın "Təkliflər sorğusu" üsulu ilə seçilməsi barədə qərar qəbul edilmişdir. Podratçı təşkilatların təklifləri satınalmalar haqqında qanunvericiliyə uyğun olaraq baxılmış və ən münasib





**ARDNF-in yeni inzibati binasının xarici görünüşü (Bübbül prospekti - 20)**





qiymət təklif etmiş şirkətlə müqavilə bağlanmışdır. Müqavilədə nəzərdə tutulmuş işlər podratçı tərəfindən yerinə yetirilmiş və komissiya tərəfindən yoxlanılaraq qəbul edilmişdir.

Əsaslı təmir işlərinin aparıldığı dövrdə binanın "Nizami" adına kinoteatra aid olan hissəsi təmir olunmuş sahələrdən fərqləndiyindən, habelə binanın vahid memarlıq abidəsi olduğunu nəzərə alaraq binanın digər hissəsinin də xarici tərəfinin təmiri məsələsinə Neft Fondunun Satınalmalar Komissiyasının iclasında baxılmışdır. Komissiya öz növbəsində mütəxəssislərin və təmir-tikinti şirkətlərinin rəyləri əsasında bu işlərin təxmini qiymətini müəyyən edərək qanunvericiliklə nəzərdə tutulmuş qaydada - "Təkliflər sorğusu" üsulu ilə müvafiq təklifləri cəlb edərək ən aşağı qiymət təklifini təqdim etmiş şirkəti podratçı təşkilat kimi seçmişdir. (Müvafiq məlumatlar Fondun İnternet səhifəsində öz əksini tapmışdır). Bağlanmış müqavilənin icrası nəticəsində binanın "Nizami" kinoteatrına aid olan xarici hissəsi tamamilə təmir edilmiş, fasadı bərpa edilərək ilkin vəziyyətinə qaytarılmış, çürümüş taxta qapı və pəncərələr yeni və müasir plastik materialdan olan qapı-pəncərələrlə əvəz edilmiş, qismən sınmış və solmuş vitrajlar dəyişdirilmiş və bir çox başqa işlər görülmüşdür. Bundan əlavə, bina bütövlüklə layihədə nəzərdə tutulduğu kimi, yüksək keyfiyyətlə fasad boyası ilə rənglənmişdir. Binanın kanalizasiya sistemi yoxlanılmış, xarici kanalizasiya xətti "Bakkanalizasiya" İB tərəfindən əsaslı təmir edilmiş, borular yeni, daha böyük diametrli borularla əvəz edilmiş və bununla da xəttin aparıcı qabiliyyəti artırılmışdır. Aparılmış işlərin son nəticəsi kimi Bakı şəhərinin mərkəzində yerləşən bu bina memarlıq abidəsinə layiq şəklə gətirilmişdir.

# NEFT FONDUNUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

İLLİK HESABAT 2003

Dövlət Neft Fondunun ölkə daxilində və xaricində imicinin formalaşması, uzaq və yaxın xarici ölkələrin maliyyə qurumları arasında nüfuzunun daha da artırılması məqsədi ilə 2003-cü ildə Neft Fondunun beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində məqsədyönlü iş aparılmışdır.

Neft Fondunun beynəlxalq maliyyə institutları və maliyyə təşkilatları ilə əməkdaşlığının genişləndirilməsi 2003-cü ildə mühüm vəzifələr sırasına daxil olmuşdur. Fondun fəaliyyətinin beynəlxalq maliyyə təşkilatları və institutlarının diqqət mərkəzində olduğunu nəzərə alaraq Dövlət Neft Fondu ilə bu təşkilatlar arasında əməkdaşlığın davam etdirilməsi yönümündə çoxsaylı görüşlər keçirilmişdir.

Hesabat ilində Dövlət Neft Fondu ilə Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) arasında müxtəlif görüşlər keçirilmiş və təqdimatlar təqdim edilmişdir. Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu tərəfindən "Xəzərin neft sərvətləri: Kim faydalanacaq?" mövzusunda 29 may 2003-cü il tarixində keçirilmiş beynəlxalq konfransda ARDNŞ-in İcraçı Direktorunun məruzə ilə çıxış etməsi xüsusi olaraq qeyd edilməlidir. Məruzə zamanı beynəlxalq və bir sıra yerli qeyri-hökumət təşkilatları üçün Neft Fondunun fəaliyyətinə dair geniş təqdimat təşkil edilmişdir.

2003-cü ildə Fondun fəaliyyətində şəffaflığın təmin edilməsi və ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi baxımından önəmli yer tutmuş digər bir tədbirə 01 iyul 2003-cü il tarixində ölkənin qeyri-hökumət təşkilatları üçün təşkil olunmuş və təqribən 350 QHT-





nin təmsilçilərini əhatə etmiş görüşü aid etmək olardı. Bu görüşdə Fondun rəhbərliyi tərəfindən Dövlət Neft Fondunun fəaliyyəti barədə geniş təqdimat keçirilmiş və bu təqdimatda Azərbaycan Respublikasının Dövlət Neft Fondunun fəaliyyəti barədə, ölkədə həyata keçirilən neft strategiyası, neft gəlirlərinin proqnozları, onların səmərəli idarə edilməsi məsələləri, neft gəlirlərinin istifadəsində digər neft ixrac edən ölkələrin müsbət və mənfi təcrübələri haqqında ətraflı məlumat verilmişdir.

2003-cü ildə Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi, ölkənin mineral sərvətlərinin istifadəsində şəffaflığın artırılması istiqamətində ölkə rəhbərliyinin, o cümlədən Dövlət Neft Fondunun xüsusi töhfəsi olmuşdur. 17 iyun 2003-cü il tarixində Böyük Britaniyanın London şəhərində "Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü" (MHŞT) adı altında keçirilmiş Beynəlxalq Konfransda cənab İlham Əliyevin başçılıq etdiyi Azərbaycanın nümayəndə heyəti bu Təşəbbüsə qoşulduğunu bəyan edərək mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması işində iştirak edəcəyini bildirdi.

Ölkəmizin Təşəbbüsə qoşulması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2003-cü il tarixli Sərəncamı ilə Dövlət Neft Fondunun İcraçı Direktorunun sədrliyi altında və aidiyyəti nazirlik və komitələrin nümayəndələrinin daxil olduğu milli komissiya (MHŞT üzrə Komissiya) yaradılmışdır. Konfransın tövsiyələrinə əsaslanaraq MHŞT üzrə Komissiya tərəfindən ölkədə mədən hasilatı sahəsində fəa-



**"Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü" (MHŞT) adı altında keçirilmiş Beynəlxalq Konfransda cənab İlham Əliyevin başçılıq etdiyi Azərbaycanın nümayəndə heyəti iştirak edir**

liyyət göstərən xarici şirkətlərin, habelə milli şirkətlərin hökumətə ödənişləri barədə yekun statistik məlumatların toplanmasına və bu sahədə şəffaflığın təmin edilməsinə xidmət edəcək hesabat formaları və bu formaların doldurulması təlimatı işlənib hazırlanmış və müvafiq şirkətlərə göndərilmişdir. Hal-hazırda Azərbaycanda Təşəbbüslə bağlı proses inkişaf etməkdədir və bu istiqamətdə ölkəmiz irəliyə doğru daha bir addım atmışdır.

2003-cü ildə eyni zamanda Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin maliyyələşdirilməsi məsələlərinin müzakirə edilməsi üzrə Azərbaycanda fəaliyyət göstərən neft şirkətləri ilə, habelə layihənin maliyyələşdirilməsini həyata keçirəcək beynəlxalq maliyyə-bank qurumlarının nümayəndələri ilə çoxsaylı görüşlər keçirilmişdir.



# İNSAN RESURSLARININ İNKİŞAFI



2003-cü il ərzində Neft Fondunun insan resurslarının inkişaf etdirilməsi istiqamətində bir sıra vacib tədbirlər həyata keçirilmişdir.

Hesabat ilində Neft Fondunun kollektivinin yeni inzibati binaya köçməsi ilə əlaqədar Fondun şəxsi heyətinin iş şəraitinin yaxşılaşdırılması və işçilərin əməyinin keyfiyyətinin daha da yüksəldilməsi üçün geniş imkanlar açılmışdır. ARDNŞ-ə məxsus əvvəlki binadakı yerləşdiyi kiçik sahədən fərqli olaraq, Neft Fondunun sərəncamına verilmiş yeni inzibati binasında otaqların genişliyi ilə əlaqədar, habelə burada aparılmış təmir işləri, quraşdırılmış ventilyasiya və istilik təchizatı sistemləri, texniki avadanlıq və kompüter şəbəkələrinin yaradılması sayəsində işçilərin əmək şəraiti yüksək səviyyəyə çatdırılmışdır. Yeni binada eyni zamanda fasilə vaxtı işçilərin nahar etmələri, habelə dincəlmələri üçün də zəruri şərait yaradılmışdır.

2003-cü ildə Fondun əməkdaşlarının ixtisas səviyyələrinin artırılması daim diqqət mərkəzində saxlanılmışdır. Neft Fondunun aidiyyəti bölmələrinin işçiləri Fondun əməkdaşlıq etdiyi investisiya banklarının təşkil etdiyi bir neçə tədris seminarında və kurslarda iştirak etmişlər.

Neft Fondunun vəsaitlərinin idarə edilməsi üzrə fəaliyyətində ingilis dilinin geniş istifadə olunduğunu nəzərə alaraq bu dilin mükəmməl öyrənilməsi Fondun işçi heyətinin ixtisasının artırılmasında prioritet istiqamətlərdən birini təşkil edir. Əvvəlki illərdə olduğu kimi, 2003-cü ildə də Fondun əməkdaşlarının bir qrupu "Britiş Kansl" təşkila-

tı tərəfindən müasir tələblər səviyyəsində təşkil edilmiş və Böyük Britaniyadan gəlmiş mütəxəssislər tərəfindən xüsusi metodika ilə keçirilən ingilis dili kurslarında təlim keçmişdir.

2003-cü ildə Neft Fondunun mühasibat uçotu sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə Fondun mühasibatlığının əməkdaşları bir sıra treninq proqramlarında iştirak etmişlər. Beynəlxalq mühasibat standartları əsasında Fondun yeni mühasibat sistemini və uçot siyasətini hazırlamış "Deloyt ənd Tuş" şirkəti tərəfindən Fondun əməkdaşları üçün ikihəftəlik tədris kursları keçirilmişdir. Bu kurslarda Fondun mühasibatlığının əməkdaşlarına beynəlxalq mühasibat standartları və normaları haqqında, habelə müasir standartlara uyğun mühasibat uçotunun aparılması qaydaları izah edilmişdir.





# HESABAT SİSTEMİ



Neft Fondunun fəaliyyəti beynəlxalq dairələrin, habelə ölkədaxili ictimaiyyətin daim diqqət mərkəzində olduğu üçün Fondun fəaliyyəti ilə bağlı hesabatların təqdimetmə mexanizminin təkmilləşdirilməsinə və bu sahədə şəffaflığın təmin edilməsinə hər vaxt xüsusi önəm verilir.

Neft Fondunun fəaliyyətinin, habelə hesabat sisteminin şəffaflığının təmin edilməsi ilk növbədə Fondun maliyyə fəaliyyəti haqqında hesabatının müstəqil auditor tərəfindən yoxlanılması vasitəsilə həyata keçirilir.

Əvvəlki illərdə olduğu kimi, Neft Fondunun 2003-cü il üçün maliyyə fəaliyyəti haqqında hesabatının yoxlanılması nüfuzlu beynəlxalq auditor şirkəti tərəfindən həyata keçirilmişdir. Hesabatın yoxlanılmasına müvafiq auditor şirkətinin cəlb edilməsi məqsədi ilə dövlət satınalmaları haqqında qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən nüfuzlu beynəlxalq auditor şirkətlərinə sorğular göndərilmiş və geniş müsabiqə proseduru həyata keçirilmişdir. Müsabiqənin nəticələrinə və Azərbaycan Respublikası Prezidentinin 16 mart 2004-cü il tarixli razılığına uyğun olaraq "Ernst ənd Yanq" şirkəti Fondun 2003-cü ildə maliyyə fəaliyyəti haqqında hesabatının auditoru təyin edilmişdir.

Bununla yanaşı, Dövlət Neft Fondunun fəaliyyəti ilə bağlı rüblük hesabatlar, habelə Fondun normativ qanunvericiliyində baş verən dəyişikliklər və Fondun Müşahidə

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU

Şurasının qərarları barədə məlumatlar mətbuatda və Fondun İnternet səhifəsində mütəmadi olaraq dərc etdirilmişdir.

2003-cü ildə Neft Fondunun İnternet səhifəsi (saytı) (www.oilfund.az) fəaliyyətini davam etdirmişdir. İnternet saytında Fondun fəaliyyətinin müxtəlif istiqamətlərinə dair məlumatlar, o cümlədən gəlir və xərcləri barədə press-relizlər Azərbaycan və ingilis dillərində dərc edilmiş və bu məlumatların yeniləşməsi təmin edilmişdir.

Fondun fəaliyyəti ilə bağlı ictimaiyyətə dürüst məlumatların çatdırılması məqsədi ilə hesabat ilində media nümayəndələri üçün mətbuat konfransı təşkil edilmişdir.

# DÖVLƏT NEFT FONDUNUN 2003-cü İLDƏ MALİYYƏ FƏALİYYƏTİ HAQQINDA HESABATINA DAİR AUDİTOR ŞİRKƏTİNİN RƏYİ

İLLİK HESABAT 2003

ERNST & YOUNG

■ Ernst & Young (MDB) Limited
Hyatt İnternəşnl Senter
Hyatt Tauer II, 5-ci Mərtəbə
İzmir küçəsi 1033
Bakı 370065, Azərbaycan
Tel: [994] (12) 90 70 20
Faks: [994] (12) 90 70 17

■ Ernst & Young (CIS) Limited
Hyatt International Centre
Hyatt Tower II, 5th Floor
Izmir Street 1033
Baku 370065, Azerbaijan
Phone: [994] (12) 90 70 20
Fax: [994] (12) 90 70 17

## Müstəqil Auditorların Rəyi

Azərbaycan Respublikası Dövlət Neft Fonduna

Biz Azərbaycan Respublikası Dövlət Neft Fondunun (''Fond'') bu rəyə əlavə edilmiş 31 dekabr 2003-cü və 2002-ci il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatının və həmin tarixlərdə başa çatmış illər üzrə maliyyə nəticələri, xalis aktivlərdə dəyişikliklər və nağd vəsaitlərin axını haqqında müvafiq hesabatlarının audit yoxlamasını keçirdik. Maliyyə hesabatlarının hazırlanması üçün Fondun rəhbərliyi məsuliyyət daşıyır. Bizim vəzifəmiz apardığımız audit yoxlamaları əsasında maliyyə hesabatları üzrə rəy ifadə etməkdir.

Audit yoxlamaları Beynəlxalq Mühasiblər Federasiyası tərəfindən nəşr edilmiş Beynəlxalq Audit Standartlarına uyğun surətdə aparılıb. Bu standartlara uyğun olaraq, bizdən auditin planlaşdırılmasını və aparılmasını maliyyə hesabatlarında əsaslı təhriflərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb edilir. Audit yoxlamasına maliyyə sənədlərində göstərilən rəqəmləri və açıqlamaları təsdiq edən faktların seçmə əsasında təftiş edilməsi daxildir. Audit yoxlaması həmçinin istifadə edilmiş mühasibat prinsiplərinin və rəhbərliyin verdiyi mühüm proqnozların, eləcə də hesabatın ümumiyyətlə təqdim edilməsinin qiymətləndirilməsini nəzərdə tutur. Hesab edirik ki, apardığımız audit yoxlamaları bizə öz rəyimizi ifadə etmək üçün kifayət qədər əsas verir.

Fikrimizcə, yuxarıda göstərilən maliyyə hesabatları Fondun 31 dekabr 2003-cü və 2002-ci il tarixlərinə maliyyə vəziyyətini və həmin tarixlərdə başa çatmış illər üzrə maliyyə nəticələrini və nağd vəsaitlərin axınını Beynəlxalq Mühasiblər Federasiyasının Dövlət Sektoru Komitəsinin nəşr etdiyi Dövlət Sektorunda Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq, bütün mühüm aspektlər üzrə düzgün əks etdirir.

Ernst & Young

15 aprel 2004-cü il

Bakı, Azərbaycan





## Maliyyə Hesabatları

### Maliyyə Vəziyyəti haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeyd* | 31 dekabr, 2003-cü il | 31 dekabr, 2002-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər** | | | |
| Nağd vəsaitlər və onların ekvivalentləri | *3* | **1 781 665** | 2 217 180 |
| Ticarət qiymətli kağızları | *4* | **601 565** | 644 330 |
| Digər qısamüddətli investisiyalar | *6* | **307 672** | – |
| Alınmalı faizlər | | **20 957** | 11 688 |
| Fonda daxil olmalı vəsaitlər | | **5 186** | – |
| Digər cari aktivlər | | **269** | 979 |
| | | **2 717 314** | 2 874 177 |
| **Uzunmüddətli aktivlər** | | | |
| Ödəmə müddətinin sonuna qədər saxlanılan investisiyalar | *7* | **1 304 121** | 513 765 |
| Əsas vəsaitlər, xalis | *8* | **3 457** | 1 092 |
| Qeyri-maddi aktivlər | | **156** | 163 |
| | | **1 307 734** | 515 020 |
| **Cəmi Aktivlər** | | **4 025 048** | 3 389 197 |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Dövlət Büdcəsi üzrə kreditor borc | *15* | **55 977** | – |
| BTC Şirkəti üçün Azərbaycan Xəzinədarlığı üzrə kreditor borcu | | **–** | 15 276 |
| Digər cari öhdəliklər | | **946** | – |
| **Cəmi Öhdəliklər** | | **56 923** | 15 276 |
| **Xalis Aktivlər** | | **3 968 125** | 3 373 921 |
| **XALİS AKTİVLƏR / KAPİTAL** | | | |
| Kapital qoyuluşu | | **3 566 607** | 3 108 411 |
| Yığılmış əlavə vəsait | | **401 518** | 265 510 |
| **Cəmi Xalis Aktivlər / Kapital** | | **3 968 125** | 3 373 921 |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*

## Maliyyə Nəticələri haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | Qeyd | 31 dekabr tarixində bitən 2003-cü il | 2002-ci il |
|---|---|---|---|
| **Əməliyyat gəliri** | | | |
| Faiz gəliri | | **86 382** | 52 078 |
| Pul bazarı fondlarından əldə edilmiş gəlir | | **16 969** | 6 939 |
| Xalis dilinq gəlirləri | | **12 896** | 1 040 |
| **Cəmi əməliyyat gəliri** | | **116 247** | 60 057 |
| **Əməliyyat xərcləri** | | | |
| Bank komisyon haqları | | **515** | 255 |
| Əmək haqqı, məvaciblər və işçilərə müavinatlar | | **398** | 238 |
| Kommunikasiya xərcləri | | **241** | 115 |
| Amortizasiya | | **174** | 51 |
| Peşəkar xidmətlər | | **160** | 223 |
| Ezamiyyət xərcləri | | **114** | 69 |
| S.W.I.F.T xərcləri | | **114** | – |
| Nəşr etmə haqları | | **40** | 37 |
| Təlim | | **–** | 25 |
| Digər əməliyyat xərcləri | | **233** | 191 |
| **Cəmi əməliyyat xərcləri** | *12* | **1 989** | 1 204 |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş əlavə vəsait** | | **114 258** | 58 853 |
| **Qeyri-əməliyyat gəliri** | | | |
| Məzənnə fərqindən yaranan mənfəət | | **67 196** | 64 075 |
| **Cəmi qeyri-əməliyyat gəliri** | | **67 196** | 64 075 |
| **Vergidən əvvəl əldə edilmiş əlavə vəsait** | | **181 454** | 122 928 |
| **Mənfəət vergisi** | *9* | **45 446** | – |
| **Dövr üzrə əldə edilmiş xalis əlavə vəsait** | | **136 008** | 122 928 |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*





## Xalis Aktivlərdə Dəyişikliklər haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | Qeyd | Daxil Olmuş Vəsait | Yığılmış Əlavə Vəsait | Cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2001-ci il tarixinə qalıq** | | 2 207 384 | 142 582 | 2 349 966 |
| Fonda daxil olmuş vəsaitlər | *10* | 1 089 680 | – | 1 089 680 |
| Dövr üzrə əldə edilmiş xalis əlavə vəsait | | – | 122 928 | 122 928 |
| Dövlət Qaçqınlar Komitəsinə köçürülmüş vəsait | | (188 653) | – | (188 653) |
| **31 dekabr 2002-ci il tarixinə qalıq** | | 3 108 411 | 265 510 | 3 373 921 |
| Fonda daxil olmuş vəsaitlər | *10* | **1 361 727** | **–** | **1 361 727** |
| Dövr üzrə əldə edilmiş xalis əlavə vəsait | | **–** | **136 008** | **136 008** |
| Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər | *13* | **(533 000)** | **–** | **(533 000)** |
| BTC Şirkətinə köçürülmüş vəsaitlər | *13* | **(280 532)** | **–** | **(280 532)** |
| Dövlət Qaçqınlar Komitəsinə köçürülmüş vəsait | *13* | **(89 999)** | **–** | **(89 999)** |
| **31 dekabr 2003-cü il tarixinə qalıq** | | **3 566 607** | **401 518** | **3 968 125** |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*

## Nağd Vəsaitlərin Axını haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | 31 dekabr tarixində bitən | |
|---|---|---|
| | **2003-cü il** | **2002-ci il** |
| **Əməliyyat fəaliyyətindən nağd vəsait axını** | | |
| Vergilərdən əvvəl əlavə vəsait | **181 454** | 122 928 |
| Əlavə vəsaiti əməliyyat fəaliyyətindən əldə edilmiş xalis nağd vəsaitlə üzləşdirmək məqsədi ilə aparılmış təshihlər: | | |
| Faiz gəliri | **(105 074)** | (54 191) |
| Məzənnə fərqindən yaranan mənfəət | **(67 196)** | (64 075) |
| Amortizasiya | **148** | 51 |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər: | | |
| Ticarət qiymətli kağızları | **50 745** | (643 294) |
| Digər qısamüddətli investisiyalar | **(307 672)** | – |
| Digər cari aktivlər | **(4 476)** | (48) |
| Digər cari öhdəliklər | **946** | – |
| Alınmış faiz | **95 805** | 43 431 |
| Ödənilmiş mənfəət vergisi | **(12 469)** | – |
| **Əməliyyat fəaliyyətində (istifadə edilən) / əldə edilən xalis nağd vəsaitlər** | **(167 789)** | (595 198) |
| **İnvestisiya fəaliyyətindən nağd vəsaitlərin axını** | | |
| Ödəmə müddətinin sonuna qədər saxlanılan investisiyaların alınması | **(787 038)** | (512 939) |
| Əmlak və avadanlığın alınması | **(2 513)** | (1 720) |
| Qeyri-maddi aktivlərin alınması | **–** | (170) |
| **İnvestisiya fəaliyyətində istifadə edilən nağd vəsaitlər** | **(789 551)** | (514 829) |
| **Maliyyə fəaliyyətindən nağd vəsaitlərin axını** | | |
| Daxilolmalar üzrə əldə edilmiş nağd vəsait | **1 361 727** | 1 092 430 |
| Azərbaycan Xəzinədarlığından BTC Şirkəti üçün köçürülmüş vəsaitlər | **320 752** | 257 631 |
| BTC Şirkəti üçün Azərbaycan Xəzinədarlığına köçürülmüş vəsaitlər | **(616 615)** | (242 300) |
| Dövlət Büdcəsinə vəsait köçürmələri | **(510 000)** | – |
| Dövlət Qaçqınlar Komitəsinə vəsait köçürmələri | **(89 813)** | (188 839) |
| **Maliyyə fəaliyyətindən xalis nağd vəsaitlər** | **466 051** | (918 922) |
| **Nağd vəsaitlər və onların ekvivalentlərinin xalis azalması** | **(491 289)** | 191 105 |
| Məzənnə dəyişikliklərinin nağd vəsaitlər və onların ekvivalentlərinə təsiri | **55 774** | 62 258 |
| Dövrün əvvəlinə nağd vəsaitlər və onların ekvivalentləri | **2 217 180** | 2 346 027 |
| **Dövrün sonuna nağd vəsaitlər və onların ekvivalentləri** | **1 781 665** | 2 217 180 |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*





## Maliyyə Hesabatları ilə bağlı qeydlər

### 1. Fond haqqında məlumat

Azərbaycan Respublikasının Dövlət Neft Fondu ("Fond") Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 saylı "Azərbaycan Respublikasının Dövlət Neft Fondunun Yaradılması haqqında" Fərmanı ("Fərman") ilə yaradılmışdır. Fond, vəsaitlərlə təmin etmə, neft və qaz ehtiyatlarının kəşfiyyatı və inkişafı sahəsində imzalanmış müqavilələr çərçivəsində gəlirlərdən istifadə və digər pul axını, habelə Fondun öz fəaliyyəti nəticəsində əldə edilən gəlirlərdən Azərbaycan Respublikası vətəndaşlarının və gələcək nəsillərin rifahı naminə istifadə edilməsi məqsədilə yaradılmışdır. Bu fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Fərmanın tətbiqindən irəli gələn məsələləri həll etmək səlahiyyəti verilmişdir.

Fərmana və əsasnaməyə uyğun olaraq, Fond ayrıca hüquqi şəxs kimi təsis edilmiş büdcədənkənar təşkilat olaraq, Azərbaycan Respublikası Prezidenti qarşısında hesabat verir və məsuliyyət daşıyır.

Fondun aktivləri 7 fevral 2003-cü il tarixli 849 saylı "Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən bəzi qanunvericilik aktlarında dəyişikliklərin edilməsi haqqında" fərmanla düzəldilmiş 511 saylı Prezident fərmanına əsasən formalaşır. 849 saylı Fərman Fond aktivlərinin mənbə siyahısından xarici şirkətlərlə imzalanmış müqavilələr əsasında dövlət əmlakının istifadəsindən icarə haqqlarını, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) sərmayəçi, iştirakçı və ya saziş bağlayan tərəf olan layihədə ARDNŞ-nin iştirak payı və ya investisiya ilə bağlı karbohidrogen satışından əldə edilən gəlirləri və xarici şirkətlərlə birgə fəaliyyət nəticəsində yaranan digər gəlirləri istisna etdi. Fondun aktivləri aşağıdakı mənbələrdən formalaşır:

a) müqavilələrin həyata keçirilməsi ilə neft və qaz ehtiyatlarının kəşfiyyatı, inkişafı və Azərbaycanın Xəzər Dənizi Sektoru daxil olmaqla, Azərbaycan Respublikası ərazisində hasilat, habelə neft və qaz kəşfiyyatı, inkişafı və nəql olunması ilə bağlı digər müqavilələr, ARDNŞ və digər səlahiyyətli dövlət orqanı və sərmayəçilər arasında müqavilələrin imzalanması nəticəsində əmələ gəlmiş gəlirlər, aşağıdakılar daxil olmaqla:
   - Layihədə ARDNŞ-nin sərmayəçi, iştirakçı və ya saziş bağlayan tərəf olaraq ARDNŞ-nin iştirak payı və ya investisiya ilə bağlı gəlirləri istisna etməklə, Azərbaycan Respublikasının payına düşən (karbohidrogen itkisi ilə əlaqədar məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, marketinq, sığorta və müstəqil qiymətləndirmə xərclərini çıxmaq şərti ilə) karbohidrogen satışından olan xalis gəlirlər;
   - Neft və qaz müqavilələrin imzalanması və ARDNŞ və ya səlahiyyətli dövlət orqanlarına hasilat pay bölgüsü haqqında sazişlər ilə əlaqədar sərmayəçilər tərəfindən ödənilən bonuslar;
   - Neft və qaz kəşfiyyatı ilə bağlı müqavilə sahəsindən istifadəsi üçün ARDNŞ və/və ya Azərbaycan Respublikası səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən köçürülən ödənişlər;
   - Bakı-Supsa neft ixrac kəmərinin istifadəsi ilə Azərbaycan Respublikası ərazisi üzrə neft və qaz nəqliyyatından əldə edilən gəlirlər;
   - Neft və qaz müqavilələri çərçivəsində ARDNŞ və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən aktivlərin köçürülməsindən əmələ gələn gəlirlər.

b) Faiz, dividend, aktiv yenidənqiymətləndirmə və digər gəlirlər daxil olmaqla, Fond aktivlərinin yerləşdirilməsi və idarə edilməsindən yaranan gəlirlər.

c) Neft və qaz müqavilələri ilə əlaqədar layihələrdə ARDNŞ-nin sərmayəçi, iştirakçı və ya saziş bağlayan tərəf olaraq ARDNŞ-nin iştirak payı və ya investisiya ilə bağlı gəlirini istisna etməklə Azərbaycan Respublikasının payına düşən dividend və mənfəət iştirakı gəliri;

ç) Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri vasitəsilə Azərbaycan Respublikası ərazisində neft və qaz nəqlindən yaranan gəlirlər və mədaxillər;

d) Qrantlar və təmannasız yardım;

e) Azərbaycan qanunvericiliyinə əsasən digər gəlirlər və daxilolmalar.

Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və ya Səlahiyyətli Hökumət Orqanı yuxarıda göstərilən vəsaitlərin və gəlirlərin yığılmasını və onların Fonda köçürülməsini həyata keçirəcəkdir.

2003-cü ildə Fond tanınmış maliyyə qurumları ilə vəsaitlərin saxlanılmasına dair iki və investisiyaların idarə edilməsi haqqında üç imzalanmış sazişi qüvvədə saxlamışdır. Vəsaitlərin saxlanılmasına dair sazişlər əsasında maliyyə qurumları Fondun aldığı qiymətli kağızları saxlayır, investisiyaların idarə

edilməsi haqqında sazişlər əsasında isə maliyyə qurumları Fondun qəbul etdiyi ümumi investisiya qaydaları əsasında Fondun vəsaitlərini idarə edir.

Fondun ofisinin qeydiyyatdan keçmiş ünvanı: Bülbül prospekti 20, Bakı şəh., AZ1014 Azərbaycan

Fond işçilərinin sayı 31 dekabr 2003-cü və 2002-ci il tarixlərinə müvafiq olaraq 19 və 12 nəfərə bərabər olmuşdur.

31 dekabr 2003-cü il tarixində bitən il üzrə bu maliyyə hesabatlar, Fondun İcraçı Direktoru tərəfindən 15 aprel 2004-cü ildə təsdiq edilib.

**2. Mühüm mühasibat uçotu prinsipləri**

***Hesabatın tərtib edilməsinin əsası***

Fondun maliyyə hesabatları Beynəlxalq Mühasiblər Federasiyasının Dövlət Sektoru Komitəsi tərəfindən nəşr olunmuş Dövlət Sektorunda Beynəlxalq Mühasibat Uçotu Standartlarına (''DSBMUS'') uyğun olaraq hazırlanmışdır. DSBMUS Beynəlxalq Maliyyə Hesabatları Standartlarını (''BMHS'') dövlət sektoruna uyğunlaşdırmaqla tərtib edilmişdir.

BMHS Beynəlxalq Mühasibat Standartları Şurasının (BMSŞ) təsdiq etdiyi standartlardan və şərhlərdən, eləcə də Beynəlxalq Mühasibat Standartları Komitəsinin təsdiq etdiyi qüvvədə olan BMHS və Daimi Şərhlər Komitəsinin şərhlərindən ibarət olan standardlar əsasında hazırlanmışdır. Dövlət sektoru dedikdə, dövlət, regional və yerli idarəçilik orqanları və müvafiq hökumət strukturları nəzərdə tutulur.

Fond 31 dekabr 2003-cü və 2002-ci ilədək nəşr olunmuş DSBMUS-nın hər birini tətbiq etməyi qərara almışdır. DSBMUS-nın buna icazə verdiyi kimi, Fond ekvivalent DSBMUS olmadıqda, BMHS-nın müddəalarını tətbiq edir.

İnvestisiya əmlaklarının real dəyərlə ölçülməsi istisna olmaqla maliyyə hesabatları ilkin dəyər əsasında hazırlanmışdır.

Fond mühasibat uçotunu Azərbaycan mühasibat uçotu standartlarına uyğun olaraq Azərbaycan manatı ilə aparır. Əlavə edilmiş maliyyə hesabatları Azərbaycan mühasibat uçotu qaydalarına uyğun olan mühasibat qeydləri əsasında DSBMUS uyğun olaraq hazırlanmışdır.

Fondun aktivlərinin və gəlirlərinin əksəriyyətinin xarıci valyuta ilə qeydə alınmasına baxmayaraq, Fond hesabatların tərtibi və əməliyyatlarının ölçülməsi üçün Azərbaycan manatından istifadə edir, belə ki, Fondun bütün xərcləri və ayırmaları Azərbaycan manatı ilə həyata keçirilir və ya qiymətləndirilir və Fondun maliyyə nəticələri Azərbaycan manatı ilə müəyyən edilmiş illik büdcə ilə müqayisədə qiymətləndirilir.

Dövlət Sektorunda Beynəlxalq Mühasibat Uçotunun 4 saylı "Xarici Valyutanın Məzənnəsindəki Dəyişikliklərin Təsiri" Standartına uyğun olaraq, xarici valyuta (əsasən ABŞ Dolları) ilə aparılan əməliyyatlar və əks etdirilmiş qalıqlar Azərbaycan manatı ilə yenidən qiymətləndirilmişdir. Gəlir və xərclər ilkin mübadilə məzənnəsinə təqribən bərabər olan orta aylıq mübadilə dərəcəsi nəzərə alınmaqla Azərbaycan manatına çevrilir. Kapital və qeyri-pul aktivləri və öhdəlikləri əməliyyat gününə qüvvədə olan ilkin mübadilə məzənnəsi nəzərə alınmaqla Azərbaycan manatına çevrilir. Pul aktivləri və öhdəlikləri balans tarixinə qüvvədə olan mübadilə məzənnəsi nəzərə alınmaqla çevrilir. Azərbaycan manatı ilə ifadə edilməyən pul aktiv və öhdəliklərinin çevrilməsindən yaranan məzənnə mənfəəti və zərəri əməliyyatlar üzrə müvafiq surətdə kreditləşdirilir və ya debetləşdirilir.

Azərbaycan manatı Azərbaycan Respublikasından kənarda tam sərbəst dönərli valyuta deyildir. Azərbaycan Respublikasının daxilində rəsmi məzənnə gündəlik olaraq Milli Bank tərəfindən müəyyən edilir. Bazar məzənnəsi rəsmi məzənnədən fərqli ola bilər, lakin fərq adətən Milli Bankın nəzarət etdiyi çox kiçik parametrlər çərçivəsində olur. 31 dekabr 2003-cü il və 2002-ci il tarixlərinə rəsmi məzənnələr, müvafiq olaraq 1 ABŞ dolları 4 923 Azərbaycan manatına və 4 893 Azərbaycan manatına bərabər olmuşdur.

***Ehtimal əsasında qiymətləndirmə***

Bu maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən hesabatda əks etdirilən aktivlərə, gəlirlərə və xərclərə, daxilolmalara və vəsait ayırmalarına təsir edəcək proqnoz və mülahizələrin verilməsini tələb edir. Rəhbərlik davamlı olaraq öz proqnoz və mülahizələrini, o cümlədən gəlirin və gözlənilməyən halların əks etdirilməsi ilə bağlı olanları qiymətləndirir. Rəhbərlik öz proqnozlarını bazar xüsusiyyətlərinin nəzərə alındığı müxtəlif mülahizələr əsasında qurur ki, bunlar da müvafiq şərait daxilində məqsədəuyğun hesab edilir və bunların nəticəsi aktivlərin başqa mənbələrdən əldə edilə bilməyəcək cari dəyəri haqqında mülahizələr formalaşdırmağa əsas yarardır. Faktiki nəticələr hər hansı mülahizələr və şərait çərçivəsində bu proqnozlardan əhəmiyyətli dərəcədə fərqlənə bilər.

***Maliyyə alətlərinin tanınması***

Maliyyə aktivlərinin alışı və ya satışı hesablaşma günü mühasibatı ilə qeydə alınır. Hesablaşma günü aktivin Fonda və ya Fond tərəfindən çatdırılan bir tarixdir. Hesabatın hesablaşma tarixi üzrə mühasibat a) aktivin fonda köçürülən tarixdən qeydə alınmasına b) aktivin Fonddan çıxarıldığı tarixdən qeydə alınmasına aiddir. Fond ticarət tarixindən (aktivlərin alışı və ya satışını Fond tərəfindən həyata keçirdiyi tarix) hesablaşma tarixinədək müddət ərzində aktivin real dəyərində hər hansı bir dəyişikliyini əldə edilmiş aktivin mühasibatda əks olunduğu ilə eyni şəkildə qeydə almalıdır. Real dəyərin dəyişməsi ilkin dəyərlə yaxud amortizasiya edilmiş dəyərlə əks etdirilən aktivlər üçün qeydə alınmır; ticarət məqsədləri üçün saxlanılan aktivlər üzrə xalis mənfəət ya zərərdə; və satış üçün mövcud olan aktivlər üzrə xalis mənfəət, zərər yaxud kapitalda qeydə alınır.

Maliyyə aktivləri və öhdəliklər birinci dəfə ilkin dəyərlə uçota alınırlar. Həmin ilkin dəyər verilmiş (alınmış) vəsaitin real dəyərinə (əməliyyat xərcləri çıxmaqla) bərabər sayılır. Maliyyə aktivlərin və öhdəliklərin sonrakı uçotu bu qeydin aşağıdakı hissəsində müzakirə olunur.

***Nağd vəsaitlər və onların ekvivalentləri***

Nağd vəsaitlər və onların ekvivalentləri kassada olan nağd vəsaitlərdən, ödəmə müddəti maliyyə hesabatlarının tarixindən üç ay ərzində tamamlanan və ya qısamüddətli depozitlər, eləcə də ödəmə müddəti üç ay və ya daha az olan, müəyyən nağd məbləğə çevrilə bilən və dəyərinin dəyişməsi riski cüzi olan yüksək likvidli investisiyalardan ibarətdir. Kassada və banklarda olan nağd vəsaitlər və depozitlər ilkin dəyərə faiz əlavə olunmaqla əks etdirilir.

***Kommersiya kağızları və depozit sertifikatları***

Kommersiya kağızları və depozit sertifikatları real dəyərlə əks etdirilir.

***Ticarət Qiymətli Kağızları***

Qiymətlərin qısa müddətli dəyişkənliyindən və ya ticarətçilərin gəlirindən əldə edilən mənfəət məqsədi ilə alınmış qiymətli kağızlar ticarət qiymətli kağızları kimi təsnif olunur. Ticarət qiymətli kağızları ilkin olaraq maliyyə alətlərinə müvafiq olan prinsiplərə əsasən qeydə alınır və sonradan isə balans tarixinə bazar qiymətlərinə əsasən real dəyərlə yenidən qiymətləndirilir. Ticarət qiymətli kağızları ilə əməliyyatlar nəticəsində realizə olunmuş və realizə olunmamış gəlirlər və zərərlər xalis dilinq gəlirlərin hissəsi kimi maliyyə nəticələri haqqında hesabatlarda qeydə alınır. Ticarət qiymətli kağızlarından qazanılmış gəlir faiz gəliri kimi göstərilir.

Real dəyərin müəyyən edilməsində qiymətli kağızların dəyərləri bazarda mübadilə olunduğu təqdirdə son təyin edilmiş qiyməti əks halda, son alış qiyməti istifadə olunur. Bazar qiymətləri mövcud olmadığı və ya Fondun mövqeyinin bağlanılması əsaslı şəkildə bazar qiymətlərinə təsir edəcəyi gözlənildiyi halda, real dəyər digər bazarlarda satınalınan oxşar alətlərin qiymətlərinə, yaxud realizə edilə bilən məbləğin rəhbərlik tərəfindən obyektiv və etibarlı qiymətləndirilməsinə istinadən müəyyən edilir.

***İnvestisiya qiymətli kağızları***

Fond öz investisiya qiymətli kağızlarını iki kateqoriyaya təsnif edir:

- Müəyyən edilmiş ödəmə müddəti və müəyyən ödəniş tarixi olan və rəhbərliyin ödəmə müddətinə qədər saxlamaq niyyəti və imkanı olan qiymətli kağızlar ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlar kimi təsnif olunur, və
- Fond ödəmə müddətinin sonuna qədər saxlanılan və ya ticarət məqsədi üçün saxlanılan qiymətli kağızlar kimi təsnif olunmayan qiymətli kağızları satış üçün mövcud olan qiymətli kağızlara aid edir. Fond 31 dekabr 2003 və 2002-ci il tarixinə satış üçün mövcud olan qiymətli kağızlara malik deyildi.

Fond investisiya qiymətli kağızlarını alış vaxtı rəhbərliyin niyyətindən asılı olaraq təsnif edir.

Ödəmə müddətinin sonuna qədər saxlanılan investisiya qiymətli kağızları ilkin olaraq yuxarıda qeyd olunan prinsiplərə uyğun olaraq, sonradan isə faktiki faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyəri ilə ölçülür. Aktivlərin dəyərinin azalması ilə əlaqədar ehtiyatlar

hər halı nəzərə almaqla hesablanır. Ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlar üzrə bütün gəlirlər və zərərlər maliyyə nəticələri haqqında hesabatda qeydə alınır.

***Əsas vəsaitlər***

Əsas vəsaitlər ilkin dəyərdən hesablanmış amortizasiya çıxıldıqdan sonra alınan məbləğlə əks etdirilir. Ofis avadanlığı, mebel və nəqliyyat vasitələri istismar müddəti dörd ildən beş ilədək hesablanmaqla bərabər hissələrlə silinmə metodu əsasında amortizasiya edilir. Amortizasiya aktiv istismara verildikdən sonra növbəti ayın birinci günündən hesablanır. Əmlak, qurğu və avadanlığa aid olan texniki xidmət xərcləri çəkildiyi zaman qeydə alınır.

***Vəsaitlərin dəyərinin azalması***

36 saylı "Vəsaitlərin Dəyərinin Azalması" Beynəlxalq Mühasibat Uçotu Standartına uyğun olaraq, Fondun əsas vəsaitləri, qeyri-maddi aktivləri və maliyyə aktivləri aktivin cari dəyərinin ödənilə bilməməsi faktını göstərən hər hansı hadisənin və ya dəyişikliyin olub-olmamasını müəyyən etmək məqsədi ilə yoxlanılır. Fond qiymətləndirməni dəyərin azalması göstəricilərinə, o cümlədən aktivin xüsusiyyəti, ilkin və ya gələcək mənfəətlilik göstəricisi, habelə digər mövcud xarici bazar şəraiti və ya faktorlarına əsasən aparır. Amortizasiya göstəricisi olduqda, Fond aktivin cari dəyərini onun ödənilə biləcək dəyəri ilə (aktivin xalis satış qiyməti və ya istifadədə olan dəyəri - hansı daha yüksək olarsa) müqayisə edəcəkdir. Aktivin istifadədə olan dəyəri həmin aktivin qalan istismar müddəti ərzində onun davamlı istifadəsindən və təqdim edilməsindən gözlənilən gələcək nağd daxilolmaların cari dəyəri deməkdir; aktivin xalis satış dəyəri isə aktivin kommersiya əməliyyatında satışından (satış xərcləri çıxılmaqla) əldə edilə bilən dəyəridir. Əgər aktivin ödənilə biləcək dəyəri onun cari dəyərindən aşağıdırsa, bu zaman yaranan fərq dəyərin azalması üzrə itki kimi müəyyən ediləcəkdir.

Ödənilə biləcək dəyərin sonradan artması dəyərin azalması üzrə itki qeydə alınandan sonra baş verən hadisə ilə bağlı olduğu halda, dəyərin azalması üzrə itki geri qaytarılır. Dəyərin azalması üzrə itki yalnız bu şərtlə geri qaytarıla bilər ki, aktivin balans dəyəri, dəyərin azalması üzrə itki qeydə alınmadığı təqdirdə amortizasiyanı çıxmaqla müəyyən edilə bilən balans dəyərindən artıq olmasın.

2003-cü və 2002-ci illərdə dəyərin azalması üzrə hər hansı xərc müəyyən edilməmişdir.

***Xalis aktivlər/Kapital***

Köçürmələr Fondun hökumət müəssisələrinə, eləcə də hökumət tərəfindən idarə edilən müəssisələrə ödədiyi vəsaitin real dəyəri ilə ödəniş tarixində əks etdirilir. Faktiki köçürmə hökumət və hökumət tərəfindən idarə edilən müəssisələrin göndərdiyi müraciət məktublarının təsdiq edici sənədlərlə təsdiq olunduğu vaxt həyata keçirilir.

Qaçqınlar və Məcburi Köçkünlərlə İş Uzrə Dövlət Komitəsinə ("Qaçqınlar Komitəsi") köçürülmələr Fond rəhbərliyinin təsdiqindən sonra həyata keçirilir.

Bakı-Tbilisi-Ceyhan layihəsi ilə əlaqədar Azərbaycan Xəzinəsinə köçürülmələr Fondun BTC Şirkətindən nağd vəsaitləri qəbul etdiyi zaman həyata keçirilir.

Dövlət Büdcəsinə köçürülmələr Prezident Fərmanları tərəfindən təsdiq edilir və faktiki olaraq Fond tərəfindən köçürülərkən qeydə alınır.

Azərbaycan Respublikasının payına düşən xam neftin və qazın satışından əldə edilən xalis gəlir ARDNŞ-nin Fonda köçürülməli məbləğlər barədə məlumat verərkən Fonda daxilolmalar kimi əks etdirilir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ("ABƏŞ") tərəfindən ödənilən icarə haqqı və boru kəməri tranzit tarifləri ödənişləri daxilolmalar kimi əks etdirilir.

Xarici şirkətlərin ödədiyi bonus və akrhesabı ödənişlər bu cür ödənişlər ARDNŞ və Fond tərəfindən alındığı zaman uçotda əks etdirilir.

Prezident Fərmanlarına uyğun olaraq xitamvermə və konsessiya sahəsindən imtina edilməsi ilə bağlı ödənişlər, eləcə də quruda hasilatın pay bölgüsü sazişləri çərçivəsində yerli bazar neftinin satışından ARDNŞ-nın aldığı xalis gəlir Fondun aktivlərinə daxil edilmir.

Yuxarıda göstərilən köçürülmə və ödənişlər 1 saylı DSBMUS "Maliyyə Hesabatları Təqdimatı"na uyğun olaraq Fondun kapitalında əks edilir.

***Gəlir və xərclərin əks etdirilməsi***

Gəlir Şirkət tərəfindən iqtisadi fayda əldə ediləcəyi və gəlirin etibarlı şəkildə ölçülməsi ehtimalı olduğu halda qeydə alınır. Faiz gəliri hesablama metodu ilə əks etdirilir.





Xərclər hesablama metodu ilə əks etdirilir.

***Mənfəət vergisi***

Qeyd 9-da göstərildiyi kimi, Fond 1 yanvar 2003-cü il tarixindən vergi ödəyicisi olmuşdur.

Müddəti uzadılmış mənfəət vergisi, öhdəlik metodundan istifadə etməklə, aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında balans tarixinə mövcud olan bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Müddəti uzadılmış vergi öhdəlikləri vergiyə cəlb edilən bütün müvəqqəti fərqlər üçün müəyyən ediləcək. Müddəti uzadılmış vergi aktivləri bütün çıxılan müvəqqəti fərqlər, istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin gələcəyə keçirilməsi üçün bu dərəcədə müəyyən edilir ki, çıxılan müvəqqəti fərqlərin, istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin gələcəyə keçirilməsinin istifadə edilə bildiyi vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimalı olsun.

Müddəti uzadılmış aktivlərinin balans dəyəri hər bir balans tarixində nəzərdən keçirilir və vaxtı uzadılmış mənfəət vergisi aktivlərinin hamısının və ya bir hissəsinin istifadə edilməsi üçün kifayət qədər vergiyə cəlb edilən mənfəətin mövcudluğu ehtimalı artıq olmadığı halda azaldılır.

Müddəti uzadılmış mənfəət vergisi aktivləri və passivləri, balans tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

***Dövlət sosial müdafiə fondu***

Fond öz işçiləri üçün Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna köçürmələr həyata keçirir.

***Yenidən təsnif etmə***

Əvvəlki illərdə hesabatda əks olunmuş müəyyən məbləğlər cari ilin təqdimatına uyğunlaşdırmaq məqsədilə yenidən təsnif olunub.

**3. Nağd vəsaitlər və onların ekvivalentləri**

31 dekabr tarixinə nağd vəsaitlər və onların ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

| | 2003 | 2002 |
|---|---|---|
| Depozitlər | **1 437 752** | 998 507 |
| Pul bazarı fondları | **254 451** | 910 876 |
| Kassa və digər bank hesabları | **87 154** | 284 477 |
| Milli Bankda ABŞ Dolları ilə bank hesabı | **2 308** | 23 320 |
| | **1 781 665** | **2 217 180** |

*Depozitlər*

31 dekabr 2003-cü il tarixinə Fond faiz dərəcəsi 1,05%-dən 9,5%-dək olan altı bank depozitinə malik olmuşdur. Bütün depozitlərin müddəti 2004-cü ilin yanvarında başa çatıb. Bank depozitləri AA (Standard & Poor's, Fitch) kredit reytinqindən aşağı olmayan uzunmüddətli reytinqə malik olan müxtəlif banklarda yerləşdirilmişdir. Altı depozitdən ikisi dəyəri müvafiq olaraq 196 920 milyon Azərbaycan manatı və 295 380 milyon Azərbaycan manatı olan JP Morgan Chase (London) və Royal Bank of Scotland bankında saxlanılan İki Valyutalı Depozitlərdən (Dual Currency Deposit) ibarətdir və müəyyən faiz dərəcəsi müvafiq olaraq 9% və 5% təşkil edir.

31 dekabr 2002-ci il tarixinə Fond faiz dərəcəsi 1,24%-dən 5%-dək olan səkkiz bank depozitinə malik olmuşdur. 28 mart 2003-cü ildə başa çatan 97 860 milyon Azərbaycan manatı məbləğində olan depozitdən başqa bütün depozitlər 2003-cü ilin yanvar ayında başa çatıb.

*Pul bazarı fondları*

Pul bazarı fondlarına yerləşdirilmiş investisiya bu fondlardakı tələb olunan vaxtda ödənilən səhmlərdən ibarətdir. Pul bazarı fondları öz vəsaitlərini ABŞ Dolları ilə ifadə edilmiş qısamüddətli borc

və borcla bağlı sənədlərdə (məsələn, kommersiya qiymətli kağızları, depozit sertifikatları və ya aktivlərlə zəmanət verilmiş qiymətli kağızlar) yerləşdirir. Fonda ödənməli faiz və dividendlər aylıq əsasda və ya daha qısa fasilələrlə yenidən investisiya edilir.

*Kassa və digər bank hesabları*

Azərbaycan Respublikası Milli Bankı və Beynəlxalq Bankında saxlanılan və Azərbaycan manatı ilə ifadə edilmiş müvafiq olaraq 42 652 milyon Azərbaycan manatı və 624 milyon Azərbaycan manatı məbləğində və Avro və Britaniya funtu ilə ifadə edilmiş Clariden Bankında (Credit Suisse) saxlanılan müvafiq olaraq 17 milyon Azərbaycan manatı və 35 milyon Azərbaycan manatı məbləğində vəsaitləri istisna olmaqla 31 dekabr 2003-cü il tarixinə bütün nağd vəsaitlər və onların ekvivalentləri ABŞ dolları ilə ifadə edilmişdir. 31 dekabr 2003-cü il müddətində Fondun Milli Bankda Azərbaycan manatı ilə saxladığı hesab üzrə faiz hesablanmır.

31 dekabr 2002-ci il tarixinə bütün nağd vəsaitlər və onların ekvivalentləri (Azərbaycan manatı ilə ifadə edilmiş və Azərbaycan Respublikasının Milli Bankında və Beynəlxalq Bankında saxlanılan müvafiq olaraq 20 milyon Azərbaycan manatı və 1 107 milyon Azərbaycan manatı məbləğləri istisna olmaqla) ABŞ Dolları ilə ifadə edilmişdir. 31 dekabr 2002-ci il tarixinə Fondun Milli Bankda Azərbaycan manatı ilə saxladığı hesab üzrə faiz hesablanmamışdır.

*Milli Bankda ABŞ Dolları ilə bank hesabı*

Fondun Milli Bankda ABŞ Dolları ilə bank hesabı vardır. Milli Bankla Fond arasında bağlanmış müqaviləyə əsasən, Fondun Milli Banka yerləşdirdiyi bütün nağd vəsaitlər Nyu Yorkun Federal Rezerv Bankında saxlanılan xüsusi investisiya hesabına köçürülür. Nağd vəsaitlərin xüsusi investisiya hesabına yerləşdirilməsindən əldə edilən gəlir Milli Bankda bank hesabında toplanılır və Fond bunları gündəlik olaraq əks etdirir.

**4. Ticarət qiymətli kağızları**

31 dekabr tarixinə ticarət qiymətli kağızları aşağıdakılardan ibarət olmuşdur:

| | 2003 | 2002 |
|---|---|---|
| Dövlət qiymətli kağızları | **299 937** | 44 744 |
| Maliyyə təşkilatlarının qiymətli kağızları | **93 997** | 185 752 |
| Korporativ istiqrazlar | **81 843** | 30 090 |
| Amerika agentliklərinin qiymətli kağızları | **61 398** | 364 054 |
| SPDR Trust | **52 044** | – |
| Beynəlmilər təşkilat istiqrazları | **12 346** | 19 690 |
| | **601 565** | **644 330** |

İnvestisiyaların idarə edilməsi haqqında saziş əsasında Deutsche Bankı, Clariden Bankı və Societe Generale banklarında saxlanılan 601 565 milyon Azərbaycan manatı məbləğində ticarət qiymətli kağızları 31 dekabr 2003-cü il tarixinə 1,08%-dən 13,625%-ə qədər dərəcələrdə faiz gəliri gətirir. 31 dekabr 2002-ci il tarixinə vəsaitlərin saxlanılması haqqında saziş əsasında Deutsche Bank AG Nyu York və aktivlərin idarə edilməsi haqqında saziş əsasında Clariden Bankında saxlanılan 644 330 milyon Azərbaycan manatı məbləğində ticarət qiymətli kağızları 1,17%-dən 7,5%-ə qədər dərəcələrdə faiz gəliri gətirib.

*Dövlət qiymətli kağızları*

31 dekabr 2003-cü il tarixinə dövlət qiymətli kağızları 1,75%-dən 8,75%-ə qədər dərəcələrdə faiz gəliri gətirən və 2004-cü ilin sentyabrından 2011-ci ilin aprelinədək müddət ərzində başa çatan ABŞ xəzinədarlıq istiqrazlarından, habelə Avropa və Asiya hökümətləri tərəfindən buraxılan istiqrazlardan ibarətdir. Dövlət qiymətli kağızları Fondun investisiyalarının idarəediciləri olan Clariden Bankı və Deutsche Bank AG tərəfindən alınır və saxlanılırdı.

31 dekabr 2002-ci il tarixinə dövlət qiymətli kağızları 2,125%-dən 3,25%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2004 oktyabrından 2007-ci ilin avqust ayınadək müddətdə başa çatan ABŞ xəzinədarlıq istiqrazlarından ibarətdir.



*Maliyyə təşkilatlarının qiymətli kağızları*

31 dekabr 2003-cü il tarixinə maliyyə təşkilatlarının qiymətli kağızları Deutsche Bank SSD, KFW və digər Avropa bankları tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyalardan ibarətdir. Bu qiymətli kağızlar 1,17%-dən 7%-ə qədər dərəcələrlə faiz gəliri gətirir və 2004-cü ilin iyulundan 2008-ci ilin oktyabrına qədər müddət ərzində başa çatır.

31 dekabr 2002-ci il tarixinə maliyyə təşkilatlarının qiymətli kağızları 2,875%-dən 7,125%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2003-cü ilin yanvarından 2005-ci ilin dekabrınadək müddət ərzində başa çatan Landwirtschaftliche Rentenbank, KFW, Credit Suisse Finance və digər Avropa bankları tərəfindən buraxılmış borc qiymətli kağızlarında investisiyalardan ibarətdir.

*Korporativ qiymətli kağızları*

31 dekabr 2003-cü il tarixinə korporativ qiymətli kağızlar 1,211%-dən 6,25%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2006-cı ilin oktyabrından 2008-ci ilin mayınadək müddət ərzində başa çatan Brystol-Myers Squibb Şirkəti, Morgan Stanley və digər Avropa və Amerika şirkətləri tərəfindən buraxılmış borc qiymətli kağızlarında investisiyalardan ibarətdir.

31 dekabr 2002-ci il tarixinə korporativ qiymətli kağızlar 2,75%-dən 6%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2003-cü ilin fevralından 2006-cı ilin oktyabrınadək müddət ərzində başa çatan Amerika və Avropa təşkilatları tərəfindən buraxılan istiqrazlardan ibarətdir.

*Amerika agentliklərinin qiymətli kağızları*

31 dekabr 2003-cü il tarixinə Amerika agentliklərinin qiymətli kağızlar investisiyaları 1,875%-dən 2,75%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2006-cı ilin martından 2006-cı ilin dekabrınadək müddət ərzində başa çatan Fannie Mae, Freddie Mac və Federal Home Loan Banks bankı tərəfindən buraxılmış istiqrazlardan ibarətdir.

31 dekabr 2002-ci il tarixinə Fond tərəfindən saxlanılan Amerika agentliklərinin qiymətli kağızlar investisiyaları 2%-dən 4,85%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2003-cü ilin noyabrından 2007-ci ilin iyulunadək müddət ərzində başa çatan Fannie Mae və Federal Home Loan Banks bankı tərəfindən buraxılmış istiqrazlardan ibarətdir.

*SPDR Trust*

31 dekabr 2003-cü il tarixinə Fond 95 000 SPDR Trust (Standart & Poor's) səhmlərinə malik idi. SPDR ticarət mübadilə fondu olaraq ümumilikdə Standard & Poor's 500 İndex-nin qiymətlərini və gəlir dərəcələrini əks etdirmək məqsədilə yaranmışdır.

31 dekabr 2002-ci il tarixinə saxlanılmış SPDR Trust səhmləri mövcud deyildi.

*Beynəlmilər təşkilatların istiqrazları*

31 dekabr 2003-cü il tarixinə beynəlmilər təşkilat istiqrazları müvafiq olaraq 2,35%-dən 2,375%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2006-cı ilin aprelində və 2006-cı ilin martında başa çatan Avropa İnvestisiya Bankı və Asiya İnkişaf Bankı tərəfindən buraxılan istiqrazlardan ibarət idi.

31 dekabr 2002-ci il tarixinə Fond tərəfindən saxlanılan çoxtərəfli istiqrazlar müvafiq olaraq 5,5%-dən 5,625%-ə qədər dərəcələrlə faiz gəliri gətirən və 2003-cü il fevral və 2003-cü il martında başa çatan, Beynəlxalq Maliyyə Korporasiyası və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı tərəfindən buraxılan istiqrazlardan ibarət idi.

**5. İnvestisiyaların idarə edilməsi haqqında sazişlər**

31 dekabr 2003-cü il tarixinə Fond etibarlı beynəlxalq maliyyə təşkilatlarında İnvestisiyaların idarə edilməsi haqqında sazişlər əsasında 802 804 milyon Azərbaycan manatı saxlayıb (31 dekabr 2002-ci il tarixinə - 320 746 milyon Azərbaycan manatı).

**6. Digər qısa müddətli investisiyalar**

31 dekabr 2003-cü il tarixinə digər qısa müddətli investisiyalar aşağıdakılardan ibarət olmuşdur:

- 1,8%-dən 1,2%-ə qədər dərəcə faizi ilə gəlir gətirən və 2004-cü ilin yanvarından 2004-cü ilin avqustunadək müddət ərzində başa çatan, 209 212 milyon Azərbaycan manatı dəyərində olan Societe Generale bankında İnvestisiyaların idarə edilməsi haqqında saziş əsasında saxlanılan kommersiya kağızlarına və depozit sertifikatlarına investisiyalar; və
- 4,995% dərəcəli gəlir gətirən və 26 iyun 2004-cü il tarixində başa çatan 98 460 milyon Azərbaycan manatı məbləğində depozit.

31 dekabr 2002 tarixinə digər qısa müddətli investisiyalar mövcud deyildi.

### 7. Ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlara investisiyalar

31 dekabra ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlar aşağıdakılardan ibarət olmuşdur:

| | 2003 | 2002 |
|---|---|---|
| Maliyyə təşkilatlarının qiymətli kağızları | **1 033 387** | 513 765 |
| Amerika agentliklərinin qiymətli kağızları | **270 734** | – |
| | **1 304 121** | **513 765** |

*Maliyyə təşkilatlarının qiymətli kağızları*

31 dekabr 2003-cü il tarixinə ödəmə müddətinin sonuna qədər saxlanılan maliyyə təşkilatlarının qiymətli kağızları 1%-dən 8,5%-ə qədər dərəcə ilə faiz gəliri gətirən və 2008-ci ilin martından 2013-cü ilin iyulunadək müddət ərzində başa çatan 1 033 387 milyon Azərbaycan manatı dəyərində maliyyə təşkilatı istiqrazlarından ibarət olmuşdur.

Saziş əsasında 31 dekabr 2002-ci il tarixinə 513 765 milyon Azərbaycan manatı məbləğində ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlar 1,5%-dən 5,35%-dək sabit dərəcə ilə faiz gəliri gətirən və 2005-ci ilin oktyabrından 2009-cu ilin dekabrınadək müddət ərzində başa çatan maliyyə təşkilatları qiymətli kağızlarında investisiyaları əks etdirilib. 31 dekabr 2002-ci il tarixindən sonra bu qiymətli kağızlar nominal dəyərlə maliyyə təskilatları tərəfindən ödənilərək alınıblar.

*Amerika agentliklərinin qiymətli kağızları*

31 dekabr 2003-cü il tarixinə Fondun 2,375%-dən 8,5%-ə qədər dərəcəli faiz gəliri gətirən və 2007-ci ilin iyunundan 2013-cü ilin mayınadək müddət ərzində başa çatan Amerika agentliklərinin buraxdığı qiymətli kağızlara investisiya qoyulmuş 270 734 milyon Azərbaycan manatına malik idi.

31 dekabr 2002-ci il tarixinə ödəmə müddətinin sonuna qədər saxlanılan Amerika agentliklərinin qiymətli kağızlarına investisiyalar mövcud deyildi.

31 dekabr 2003-cü il tarixinə bütün qiymətli kağızların uzunmüddətli kredit reytinqi AA (Standard & Poor's) reytinqindən aşağı olmamış və ABŞ dolları və Avro ilə ifadə edilmişdir. 31 dekabr 2002-ci il tarixinə bütün qiymətli kağızların uzunmüddətli kredit reytinqi AA (Standard & Poor's) reytinqindən aşağı olmamış və ABŞ dolları ilə ifadə edilmişdir.

### 8. Əsas vəsaitlər

31 dekabr 2003-cü və 2002-ci il tarixlərində başa çatan illər üzrə əsas vəsaitlərin təhlili aşağıdakı cədvəldə göstərilmişdir:

| | Nəqliyyat vasitələri | Ofis avadanlığı | Mebel | Başa çatdırılmamış tikinti | Cəmi |
|---|---|---|---|---|---|
| **Balans dəyəri** | | | | | |
| 31 dekabr 2002 | 157 | 175 | 60 | 762 | 1 154 |
| Əlavələr | – | 65 | 96 | 2 352 | 2 513 |
| Əməliyyata buraxılan aktivlər | – | 762 | – | (762) | – |
| **31 dekabr 2003** | **157** | **1 002** | **156** | **2 352** | **3 667** |
| **Yığılmış amortizasiya** | | | | | |
| 31 dekabr 2002 | (22) | (25) | (15) | – | (62) |
| Amortizasiya xərci | (34) | (75) | (9) | (30) | (148) |
| **31 dekabr 2003** | **(56)** | **(100)** | **(24)** | **(30)** | **(210)** |
| **Xalis qaqıq dəyəri:** | | | | | |
| **31 dekabr 2003** | **101** | **902** | **132** | **2 322** | **3 457** |
| 31 dekabr 2002 | 135 | 150 | 45 | 762 | 1 092 |





Nazirlər Kabinetinin 27 may 2002-ci il tarixli 99 saylı Sərəncamına uyğun olaraq, əvvəllər Mədəniyyət Nazirliyinin hesablarında əks olunan, xalis balans dəyəri 390 milyon Azərbaycan manatı olan inzibati bina Fonda köçürülmüşdür. Köçürülmüş aktivin real bazar dəyəri mövcud olmadığı üçün, Fond bu binanı 17 saylı "Əmlak, Qurğu və Avadanlıq" DSBMUS-nın icazə verdiyi kimi maliyyə vəziyyəti haqqında hesabatına daxil etməmişdir. Müstəqil qiymətləyici bu köçürülmüş aktivin real dəyərini müəyyən etdikdən sonra aktiv maliyyə nəticələri haqqında hesabata daxil ediləcəkdir.

Başa çatdırılmamış tikinti Fondun inzibati binası ilə əlaqədar 2 352 milyon Azərbaycan manatı dəyərində bərpa xərclərindən ibarətdir.

### 9. Mənfəət vergisi

Mənfəət vergisi Dövlət Büdcəsinə ödənilməli cari vergidən ibarət idi. Yuxarıda qeyd edildiyi kimi 1 yanvar 2003-cü il tarixindən başlayaraq Vergi Məcəlləsinə edilən düzəlişlərə uyğun olaraq Fondun gəliri mənfəət vergisinə cəlb olunur. Mənfəət vergisinin il ərzində hesablanmış məbləği 45 446 milyon Azərbaycan manatı məbləğində olmuşdur. Mənfəət vergisi xərcləri vergidən əvvəl əldə edilmiş əlavə vəsaitə 25% tətbiq etməklə hesablanmışdır. Fond 31 dekabr 2003-cü il tarixinə müddəti uzadılmış vergilərə malik deyildi çünki onun vergi və mühasibat yazıları arasında müvəqqəti fərqlər mövcud deyildir.

### 10. Daxil olmuş vəsaitlər

31 dekabr 2003-cü və 2002-ci il tarixlərində başa çatan illər üzrə daxilolmalar aşağıdakı kimi olmuşdur:

| | Mənfəət neftinin satışından ödənilən gəlir (tutulmuş məbləğ çıxılmaqla) | Boru kəməri tranzit tarifləri | İcarə haqları | Akrhesabı ödənişlər | Bonus ödəmələri | Cəmi |
|---|---|---|---|---|---|---|
| **2003-cü ildə daxilolmalar** | **909 624** | **68 767** | **586** | **94 556** | **288 194** | **1 361 727** |
| **2002-ci ildə daxilolmalar** | 972 966 | 61 681 | 2 329 | 52 704 | – | 1 089 680 |

909 624 milyon Azərbaycan manatı dəyərində daxilolmalar 2003-cü ildə ARDNŞ tərəfindən edilib və mənfəət neftinin satışından əldə edilən vəsaitlərində Azərbaycan Respublikasının payını əks etdirir (2002-ci ildə 972 966 milyon Azərbaycan manatı).

586 milyon Azərbaycan manatı təşkil edən icarə haqqı (2002-ci ildə 2,329 milyon Azərbaycan manatı məbləğində) 7 fevral 2003-cü il tarixli 849 saylı "Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən bəzi qanunvericilik aktlarında dəyişikliklərin edilməsi haqqında" Prezident fərmanının qüvvəyə minməsindən əvvəl daxil olub və mühasibat sistemində əks olunmuşdur.

### 11. Fond tərəfindən edilən köçürülmələr

***Dövlət Büdcəsinə köçürülmələr***

27 yanvar 2003-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin 848 saylı "2003-cü il üçün Azərbaycan Respublikası Dövlət Neft Fondunun Büdcəsi haqqında" fərmanına uyğun olaraq Dövlət büdcəsinə köçürülmüş 500 000 milyon Azərbaycan manatı və 33 000 milyon Azərbaycan manatı məbləğində əlavə dəyər vergisindən ibarətdir.

2002-ci ildə Fond tərəfindən Dövlət Büdcəsinə heç bir köçürülmələr olmamışdır.

Azərbaycan Respublikası Prezidentinin "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının Maliyyələşdirilməsi haqqında" 30 iyul 2002-ci il tarixli 739 saylı Fərmanına uyğun olaraq, Fond Bakıdan Gürcüstan ərazisindən keçməklə Türkiyənin Aralıq dənizində Ceyhan limanına qədər Əsas İxrac Boru Kəmərinin ("BTC layihəsi") tikintisi üçün tələb edilən maliyyə vəsaitlərinin bir hissəsini təmin etməlidir. 739 saylı Fərmanla Fondun maliyyə ehtiyatlarından boru kəmərini maliyyələşdirmək üçün istifadə edilməsinə icazə verilir.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ("İİN") Azərbaycan (BTC) Limited şirkəti vasitəsilə neft kəməri konsorsiumunda ("BTC Şirkəti") 25 faiz payına sahibdir.

BTC Şirkəti layihə dəyərinin 30%-dək hissəsini iştirakçıların, o cümlədən Amerada Hess (BTC) Limited, Azerbaijan (BTC) Limited, BP Pipelines (BTC) Limited, ConocoPhillips (BTC) Limited, Eni BTC Limited, INPEX BTC Pipeline, Limited, ITOCHU Oil Exploration (BTC) Inc., Statoil BTC Caspian AS, TOTAL (BTC) Limited, Turkish Petroleum BTC Ltd., Unocal BTC Pipeline, Ltd., BTC International Investment Company şirkətlərinin kapital qoyuluşları hesabına təmin etmək, qalan 70%-i isə beynəlxalq maliyyə təşkilatlarından, ixrac kredit agentliklərindən və özəl banklardan cəlb etmək niyyətindədir.

Fondun Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunan 2003-cü il üçün büdcəsinə uyğun olaraq Fond İİN-in Azərbaycan (BTC) Limited şirkətinə qoyduğu kapital investisiyasının 70%-ni maliyyələşdirməsini davam edir.

2003-cü il ərzində İİN-in payını Azərbaycan (BTC) Limited şirkətinin maliyyələşməsi üçün Fond Azərbaycan Xəzinədarlığına öz kapitalından 284 918 milyon Azərbaycan manatı köçürmüşdür. 2002-ci ildə BTC şirkəti üçün Fondun kapitalından heç bir köçürülmələr olmamışdır.

### *Qaçqınlar Komitəsinə köçürülmələr*

Azərbaycan Respublikası Prezidentinin 22 avqust 2001-ci il tarixli 562 saylı və 7 sentyabr 2001-ci il tarixli 577 saylı Fərmanlarına uyğun olaraq Fond tərəfindən Dövlət Qaçqınlar Komitəsinə 89 999 milyon Azərbaycan manatı məbləğində köçürülmüşdür (2002-ci ildə 188 653 milyon Azərbaycan manatı).

## 12. Əməliyyat xərcləri

1 noyabr 2002-ci il tarixli 811 saylı Fərmana dəyişikliklər edən Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının Dövlət Neft Fondunun 2003-cü il üçün büdcəsi haqqında" 27 yanvar 2003-cü il tarixli 848 saylı Fərmanına uyğun olaraq Fondun 2003-cü il üçün əməliyyat xərcləri 5 338 milyon Azərbaycan manatı məbləğində müəyyən edilmişdir. 2003-cü ildə Fond 1 989 milyon Azərbaycan manatı məbləğində əməliyyat xərcləri çəkmiş və əsas vəsaitləri əldə etmək üçün 2 513 milyon Azərbaycan manatı xərcləmiş, bununla da, cəmi faktiki xərcləri 4 502 milyon Azərbaycan manatına bərabər olmuşdur.

## 13. Riskin idarə edilməsi siyasəti

Riskin idarə edilməsi Fondun fəaliyyətinin vacib elementidir. Kredit riskləri və faiz dərəcələrin və xarici valyuta məzənnələrinin bazarda dəyişməsi riskləri Fondun əməliyyatlarına məxsus olan risklərdir. Fondun riskin idarəolunması prinsipləri aşağıda göstərilmiş risklərlə əlaqədar yekun təsviri verilib.

Fond özünün nağd vəsaitləri və onların ekvivalentləri ilə bağlı kredit riskinə məruz qala bilər. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 saylı Fərmanı ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq, Fond kredit riskini öz vəsaitlərini uzunmüddətli kredit reytinqi A (Standard & Poor's, Fitch) və ya A2 (Moody's) reytinqindən aşağı olmayan maliyyə qurumlarının maliyyə alətlərində yerləşdirməklə idarə edir. Fondun aktivlərinin idarə edilməsi və qiymətli kağızların saxlanması kredit reytinqi AA- (Standard & Poor's, Fitch) və ya Aa3 (Moody's) reytinqindən aşağı olmayan maliyyə qurumları tərəfindən həyata keçirilir. Fond kliring bank hesablarını Azərbaycan Respublikasından kənarda kredit reytinqi AA- (Standard & Poor's, Fitch) və ya Aa3 (Moody's) reytinqindən aşağı olmayan banklarda saxlayır.

Fond öz vəsaitlərini həmçinin Milli Bankda yerləşdirir ki, bu vəsaitlər də avtomatik olaraq Nyu Yorkun Federal Rezerv Bankında olan xüsusi investisiya hesabına köçürülür. Fondun investisiya strategiyasının məqsədi, prioritet sırası ilə, kapital məbləğin təhlükəsizliyinin təmin edilməsindən və qorunmasından, riskin diversifikasiyasından və gəlirlilik dərəcəsinin rəqabətli seçiminin təmin edilməsindən ibarətdir.

Fond xarici valyuta məzənnələrinin dəyişməsinin maliyyə vəziyyətinə və nağd vəsaitlərinin axınına təsiri riskinə məruzdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2003-cü il büdcəsinin icrası ilə bağlı bəzi tədbirlər haqqında" 27 yanvar 2003-cü il tarixli 1134 saylı Sərəncamına uyğun olaraq Fondun investisiya portfeli valyuta məzənnəsinin dəyişməsi riskini azaltmaq



məqsədilə diversifikasiya edilib ABŞ dolları (60 - 70%), Avro (25 - 35) və Britaniya Funtu (0 - 10%) ibarət olacaqdır.

31 dekabr 2003 və 2002-ci il tarixlərinə bütün depozitlər, qiymətli kağızlar, nağd vəsaitlər və sair bank hesabları, eləcə də Milli Bankda ABŞ Dolları ilə bank hesabı faizli olduğu üçün faiz dərəcəsi riskinə məruz qalırdı. Qiymətli kağızlar üzrə dəyişkən faiz bir ildən az olan intervallarla yenidən qiymətləndirilir. Ticarət qiymətli kağızları üzrə müəyyən edilmiş faiz maliyyə alətlərinin müddətinin sonuna qədər dəyişmir.

Fondun aktivlərinin və öhdəliklərinin coğrafi cəmləşməsi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| | 2003 | | | | 2002 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Azərbaycan** | **Avropa** | **ABŞ** | **Cəmi** | **Azərbaycan** | **Avropa** | **ABŞ** | **Cəmi** |
| **Aktivlər:** | | | | | | | | |
| Nağd vəsaitlər və onların ekvivalentləri | 45 585 | 1 731 750 | 4 330 | 1 781 665 | 171 272 | 1 775 536 | 270 372 | 2 217 180 |
| Ticarət qiymətli kağızları | – | 549 521 | 52 044 | 601 565 | – | 280 618 | 363 712 | 644 330 |
| Digər qısamüddətli investisiyalar | 98 460 | 209 212 | – | 307 672 | – | – | – | – |
| Alınmalı faizlər | – | 6 170 | 14 787 | 20 957 | – | 4 828 | 6 860 | 11 688 |
| Fonda daxil olmalı vəsaitlər | 5 186 | – | – | 5 186 | 979 | – | – | 979 |
| Digər cari aktivlər | 269 | – | – | 269 | – | – | – | – |
| | **149 500** | **2 496 653** | **71 161** | **2 717 314** | **172 251** | **2 060 982** | **640 944** | **2 874 177** |
| Ödəmə müddətinin sonuna qədər saxlanılan investisiyalar | – | – | 1 304 121 | 1 304 121 | – | – | 513 765 | 513 765 |
| Əsas vəsaitlər, xalis | 3 457 | – | – | 3 457 | 1 092 | – | – | 1 092 |
| Qeyri maddi aktivlər | 156 | – | – | 2156 | 163 | – | – | 163 |
| | **3 613** | **–** | **1 304 121** | **1 307 734** | **1 255** | **–** | **513 765** | **515 020** |
| | **153 113** | **2 496 653** | **1 375 282** | **4 025 048** | **173 506** | **2 060 982** | **1 154 709** | **3 389 197** |
| **Öhdəliklər:** | | | | | | | | |
| Dövlət Büdcəsi üzrə kreditor borcları | 55 977 | – | – | 55 977 | – | – | – | – |
| BTC layihəsi üçün Azərbaycan Xəzinədarlığı üzrə kreditor borcu | – | – | – | – | 15 276 | – | – | 15 276 |
| Digər cari öhdəliklər | 946 | – | – | 946 | – | – | – | – |
| | **56 923** | **–** | **–** | **56 923** | **15 276** | **–** | **-** | **15 276** |
| **Xalis qalıq** | **96 190** | **2 496 653** | **1 375 282** | **3 968 125** | **158 230** | **2 060 982** | **1 154 709** | **3,373 921** |

Fondun xarici valyuta məzənnəsinin dəyişməsi riski aşağıdakı cədvəldə göstərilir:

| | 2003 | | | 2002 | | |
|---|---|---|---|---|---|---|
| | Azərbaycan | Avropa | Cəmi | Azərbaycan | Avropa | Cəmi |
| **Aktivlər:** | | | | | | |
| Nağd vəsaitlər və onların ekvivalentləri | 1 738 389 | 43 276 | 1 781 665 | 1 127 | 2 216 053 | 2 217 180 |
| Ticarət qiymətli kağızları | – | 601 565 | 601 565 | – | 644 330 | 644 330 |
| Digər qısamüddətli investisiyalar | 98 460 | 209 212 | 307 672 | – | – | – |
| Alınmalı faizlər | – | 20 957 | 20 957 | – | 11 688 | 11 688 |
| Fonda daxil olmalı vəsaitlər | – | 5 186 | 5 186 | – | – | – |
| Digər cari aktivlər | – | 269 | 269 | – | – | 979 |
| | **1 836 849** | **880 465** | **2 717 314** | **1 127** | **2 873 050** | **2 874 177** |
| Ödəmə müddətinin sonuna qədər saxlanılan investisiyalar | – | 1 304 121 | 1 304 121 | – | 513 765 | 513 765 |
| Əsas vəsaitlər, xalis | 3 457 | – | 3 457 | 1 092 | – | 1 092 |
| Qeyri maddi aktivlər | 156 | – | 156 | 163 | – | 163 |
| | **3 613** | **1 304 121** | **1 307 734** | **1 255** | **513 765** | **515 020** |
| | **1 840 462** | **2 184 586** | **4 025 048** | **2 382** | **3 386 815** | **3 389 197** |
| **Öhdəliklər:** | | | | | | |
| Dövlət Büdcəsi üzrə kreditor borcları | 55 977 | – | 55 977 | – | – | – |
| BTC layihəsi üçün Azərbaycan Xəzinədarlığı üzrə kreditor borcu | – | – | – | – | 15 276 | 15 276 |
| Digər cari öhdəliklər | 946 | – | 946 | – | – | – |
| | **56 923** | **–** | **56 923** | **–** | **15 276** | **15 276** |
| **Xalis qalıq** | **1 783 539** | **2 184 586** | **3 968 125** | **2 382** | **3 371 539** | **3 373 921** |

Yuxarıdakı cədvəldə sərbəst dönərli valyutalar ABŞ dolları, Britaniya Funtu və Avro ilə əks edilib.

### 14. Maliyyə alətlərinin real dəyəri

Real dəyər məcburi yaxud ləğv etmə ilə əlaqədar satış istisna olmaqla müvafiq məlumata malik olan və niyyətli tərəflər arasında rəqabətli əməliyyatda əvəzinə alətin mübadilə olunması mümkün olan məbləğ kimi qeyd olunur. Real dəyər müəyyən edilərkən cari iqtisadi şəraitlər və alətə xarakterik olan xüsusi risklər nəzərə alınmalıdır. Burada əks olunmuş qiymətlər Fondun xüsusi bir alətininin tam bazar mübadiləsində satışından məbləğləri əldə edə biləcəyini göstərmir.

Fond maliyyə alətlərinin real dəyərinin qiymətləndirilməsində aşağıdakı metod və fərziyyələrdən istifadə edir:

- Bir ay ərzində bitən aktiv və öhdəliklərin real dəyəri onların nisbətən qısa müddət ərzində bitməsinə görə təxminən balans dəyərinə bərabərdir;
- Daha uzun müddətli depozitlərin, faiz dərəcələri bazar dərəcələrini əks etdirdiyi üçün onların real dəyərləri təxminən balans dəyərlərinə bərabərdir.

31 dekabr 2003-cü və 2002-ci il tarixlərinə ödənilmə müddətinin sonuna qədər saxlanınan investisiyaların real dəyərləri müvafiq olaraq 1 293 942 milyon Azərbaycan manatı və 513 765 milyon Azərbaycan manatı məbləğində təxminləşdirilir. Bu məbləğlər 39 saylı "Maliyyə Alətləri: Açıqlama və Təqdimetmə" Beynəlxalq Mühasibat Uçotu Standartına uyğun olaraq açıqlanır və maliyyə hesabatlarında göstərilən məbləğlərə bərabər deyildir.





### 15. Əlaqəli tərəflər

31 dekabr müddəti üzrə əlaqəli tərəflərlə razılaşma aşağıdakılardan ibarətdir:

| Əlaqəli tərəf | Əlaqəli tərəflərdən daxilolmalar | Əlaqəli tərəflərə köçürülmələr | Əlaqəli tərəflərə kreditor borcları |
|---|---|---|---|
| Qaçqınlar komitəsi | – | 89 999 | – |
| Azərbaycan Xəzinədarlığı | 320 752 | 616 615 | – |
| Dövlət Büdcəsi | – | 522 469 | 55 977 |
| ARDNŞ | 909 624 | – | – |

Fond Qaçqınlar Komitəsinə 89 999 milyon Azərbaycan manatı məbləğində vəsait köçürmüşdür.

Azərbaycan (BTC) Şirkəti üçün İİN-in iştirak payını maliyyələşdirmək məqsədi ilə 320 752 milyon Azərbaycan manatı məbləğində vəsait Azərbaycan Xəzinədarlığından qəbul edilmişdir.

İİN-nin Azərbaycan (BTC) Limited şirkətində iştirak payının maliyyələşdirməsi məqsədilə 616 615 milyon Azərbaycan manatı məbləğində Azərbaycan Xəzinədarlığından Fonda köçürülmüşdür.

522 469 milyon Azərbaycan manatı məbləğində Dövlət Büdcəsinə köçürülmələr 11 saylı Qeyddə təsvir edilən 500 000 milyon Azərbaycan manatı məbləğində Dövlət Büdcəsinə köçürülmədən, 10 000 milyon Azərbaycan manatı məbləğində ƏDV və 12 469 milyon Azərbaycan manatı məbləğində gəlir vergisi köçürülmələrindən ibarətdir.

Dövlət büdcəsinə olan 55 977 milyon Azərbaycan manatı məbləğində kreditor borc 32 977 milyon Azərbaycan manatı və 23 000 milyon Azərbaycan manatı məbləğlərində müvafiq olaraq mənfəət vergisi və ƏDV üçün kreditor borcundan ibarətdir.

909 624 milyon Azərbaycan manatı məbləğində vəsait ARDNŞ tərəfindən mənfəət neftin satışından əldə edilən vəsaitlərdə Azərbaycan Respublikasının payını əks etdirir.